**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

***Əlyazması hüququnda***

**MƏRZİYYƏ ALLAHYAR qızı NƏCƏFOVA**

# MÜASİR AZƏRBAYCAN POEZİYASINDA QARABAĞ

**5716.01 – Azərbaycan ədəbiyyatı**

Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** **Asif Heydər oğlu Rüstəmli,**
filologiya üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **İfrat Səlim qızı Əliyeva,**
filologiya üzrə elmlər doktoru, professor

**Nizami Tağı oğlu Məmmədov,**
filologiya üzrə elmlər doktoru, professor

**Mahirə Həmid qızı Quliyeva**
filologiya üzrə elmlər doktoru, dosent

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrası

Müdafiə "____" _________ 2018-ci il saat ____ -da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.131 – Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az-1143, Bakı şəh., H.Cavid prospekti, 115, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı, IV mərtəbə

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " ____" ___________ 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**Elmi katibi:** **İsmixan Məhəmməd oğlu Osmanlı,**
**filologiya üzrə fəlsəfə doktoru**

# TƏDQİQAT İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

Azərbaycanın tarixi bölgəsi, ayrılmaz parçası olan Qarabağda yaranan söz sənəti, xalq yaradıcılığı, ədəbi-mədəni irs, klassik poeziya örnəkləri mədəniyyətimizi, mənəviyyatımızı zaman-zaman zənginləşdirib və tanıdıb. Qədimliyin, ilkinliyin etalonuna çevrilən, Quruçay vadisində qərar tutan, paleolit dövrünün maddi mədəniyyət nümunələrini, daş alətlərini qəlbinin dərinliklərində hifz edərək bu günümüzə çatdıran Azıx, Tağlar mağaraları Qarabağın bəşəriyyətə bəxş etdiyi zəhmətə, halallığa, tolerantlığa sevgi abidəsi, məhəbbət simfoniyasıdır. Xocalı eramızdan əvvəl XIV-XIII yüzilliyə aid mədəniyyət nümunələri, nekropol və kurqanları ilə tarixin sübh çağından boy göstərir, qaim-qədim həqiqətləri silinməz-pozulmaz daş yaddaşına güvənərək nişan verir. Şuşa yarandığı gündən ucalığın, xeyirxahlığın, saflığın və səxavətin simvoluna, mədəniyyətin, musiqinin beşiyinə, mənəviyyatın qalasına çevrilib. Təəssüf ki, iftixar, qürur doğuran illərin ömrü uzun olmur. Təbiətin və sənətin harmoniyası ayı zorakılığı, süngü müdaxiləsi ilə pozulur. 1805-ci ildə Kürəkçay müqaviləsi ilə Qarabağ Azərbaycandan qoparılaraq Rusiya İmperiyasına ilhaq edilir... Bu tarixdən Qarabağ mövzusunda yazan şairlərin poeziyasında tərənnüm, vəsf, nikbin əhvali-ruhiyyə öz yerini hicrana, həsrətə, ayrılığa, kədərli notlara verir. Xalqın azadlıq, istiqlal deyən dili, yazan əli qara bağla bağlanırdı... Şuşada, Qarabağda 1905, 1918, 1920 və nəhayət 1988-1994-cü illərdə törədilən qanlı faciələr, qəddarlıqla həyata keçirilən soyqırımlar Azərbaycanı müstəqilliyə gedən yoldan çəkindirmək niyyəti güdürdü. Amma, bu hadisələr xalqımızın istiqlala qovuşmasını, müstəqilliyə doğru inamlı addımlarını daha da sürətləndirdi.

Elmi ədəbiyyatda Qarabağ xanlığının tarixindən bəhs edən on “Qarabağnamə”nin mövcudluğu vurğulanır. Şübhəsiz ki, “Külli Qarabağın abı-həyatı” (M.V.Vidadi), real bədii obrazı və gerçək mənəvi tarixi poeziyada yaradılmışdır. Bütün dönəmlərdə poeziya daxili saflığını, səmimiyyətini qoruyub saxlamış, həqiqəti qeyrətlə, cəsarətlə, mətanətlə tərənnüm və təqdim etməyə nail olmuşdur. XX yüzilliyin 90-cı illər poeziyasında Qarabağ ictimai-siyasi, ədəbi-mədəni mühitin müstəvisində necə təqdim olunur? Söz sərraflarının poetik düşüncə tərəzisində tarixi gerçəkliyə, yoxsa bədii həqiqətə daha çox üstünlük verilmişdir?! Bu və ya digər məqamları incələmək, mövzuya aid olan əsərləri sistemə salmaq, problemə tam aydınlıq gətirmək, nəşr olunmuş zəngin ədəbi irsi çağdaş ədəbiyyatşünaslığın meyarları məcrasında dəyərləndirmək dissertasiyanın qarşısında duran başlıca vəzifələrdəndir.

**Mövzunun aktuallığı.** Milli düşüncə sistemimizin istiqlal, hürriyyət məfkurəsi müstəvisində təşəkkül prosesi keçdiyi 1990-cı illər tarixi mərhələ kimi çox səciyyəvidir. XX əsrin son onilliyində xalqımızın nail olduğu milli müstəqillik məhz bu tarixi şəraitin, ədəbi-mədəni, ictimai-siyasi situasiyanın bizə bəxş etdiyi taleyüklü böyük hadisə kimi dəyərləndirilməlidir. Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpası 1990-cı illər ədəbiyyatının, eləcə də onun aparıcı qolu olan poeziyanın yeni keyfiyyətdə, fərqli statusda təzahür etməsinə güclü təsir göstərmiş, sovet dövründə hökm-fərma olan ideoloji metod və prinsiplərdən qopmasına, özünü əvvəlkindən fərqli biçimdə, yeni ampluada ifadə etməsinə şərait yaratmışdır.

Danılmaz həqiqətdir ki, xalqımızı müstəqillik uğrunda mübarizədən yayındırmaq üçün tarixin müxtəlif dönəmlərində İmperiya qüvvələri məqsədli olaraq Qarabağda müharibə ocaqları qalamış, Azərbaycanın istiqlala gedən yolunun qarşısını kəsmək, suverenliyini pozmaq məqsədilə təcavüzkara, işğalçıya, qəddar erməni terrorçularına açıq-aşkar dəstək verməkdən çəkinməmişdilər. Azərbaycan insanının, ziyalısının, vətənpərvərinin nəzərində İstiqlal və Qarabağ uğrunda savaş eyni mahiyyət daşıyır, eyni məzmun kəsb edir. Azərbaycan dövlət müstəqilliyini bərpa etsə də, suverenliyini, ərazi bütövlüyünü məlum səbəblərə görə hələ də bərpa edə bilməmişdir. Qarabağ uğrunda mübarizə əslində Azərbaycanın istiqlalı, suverenliyi uğrunda mübarizədir. Ön cəbhədə, döyüş mövqeyində milli ordumuzla, igid əsgərlərimizlə eyni səngərdə milli ədəbiyyatımız, barıt qoxulu poeziyamız da döyüşür. Vətənpərvərlik, yurdsevərlik ruhunun təbliğində Qarabağ mövzusunda yazılmış poeziya müstəsna mənəvi qüdrətə və bədii-estetik keyfiyyətə malikdir. Görkəmli fransız realist yazıçısı Mari-Henri Beyle Stendalın "Qırmızı və qara" romanında səsləndirdiyi "Ədəbiyyat həyatın güzgüsü olmalıdır" düşüncəsi nə qədər banal səslənsə də, etiraf etməliyik ki, müstəqillik dövrünün Qarabağ mövzulu poeziyası hadisələrin inkişafına əsl güzgü tutur, tarixi gerçəkliyi bədii ədəbiyyatda əks etdirməklə yanaşı, acı həqiqətləri göstərir, oxucusunun hiss və duyğularını ovxarlayır, yaddaşını yeniləyir, bu torpaqda törədilmiş faciələrin, soyqrımlarının ideoloqlarını və icraçılarını cəsarətlə nişan verir.

Araşdırmalar təsdiqləyir ki, Qarabağ müharibəsinə həsr edilmiş şeirlərdə məzmun və mündəricə etibarilə dövrün, mühitin geniş panoramı real boyalarla, canlı hiss və duyğularla təsvir və tərənnüm edilməklə yanaşı, insanların ağrı-acıları, düçar olduqları müşkül və müsibətlər qabardılmış, cəsarətə, şücaətə, igidliyə, qəhrəmanlığa çağırışlar səsləndirilmişdir.

Təqdim olunan dissertasiya işinin mövzusu ona görə elmi cəhətdən aktual və qiymətlidir ki, 90-cı illərin şeir nümunələri əsasında Qarabağ

hadisələrinin poeziyada təcəssüm səviyyəsini və formasını araşdırır, bu zaman istifadə olunan poetik vasitələri, fiqurları, formaları təhlilə cəlb etməklə şeirimizin inkişaf istiqamətini, gərəklilik əmsalını müəyyənləşdirir. Digər tərəfdən ədəbiyyatşünaslığımız Qarabağ müharibəsi dövründə baş verən ictimai-siyasi hadisələri şərh etmək imkanı qazanır ki, bu da ədəbi-nəzəri fikrin inkişafı üçün olduqca əhəmiyyətlidir. Özünəməxsus tarixi inkişaf yolu keçən poetik söz sənətinin ötən əsrin son onilliyinin elmi tədqiqata cəlb olunması dövrün fəlsəfi dərkində, xarakterinin müəyyənləşdirilməsində zəruri addımdır. Dissertasiya üçün seçilən mövzunun aktuallığının əsas amili də bununla izah olunmalıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi çağdaş Azərbaycan poeziyasında Qarabağ mövzusunun işlənmə arealı, funksionallığı, poetik quruluşunun əsasları, tipoloji müəyyənliyi məsələlərinin araşdırılmasıdır. Bunun üçün aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulmuşdur:

– Qarabağ mövzusunun poeziyada inikası və ədəbiyyatşünaslıqda işlənmə istiqamətlərini ümumiləşdirməklə tədqiqata cəlb etmək;

– 1990-cı illər Azərbaycan poeziyasının mövzu palitrasının tədqiq sahələrini müəyyənləşdirmək;

– Poeziyada vətənpərvərliyin poetik dərki kimi əsas amili nəzərdən keçirmək;

– Lirikada Qarabağ mövzusunun bədii-estetik səviyyəsini, janr əlvanlığını araşdırmaq;

– Poeziyada humanizm məsələlərini tədqiq etmək;

– Epik poemalarda Qarabağ problemi və hadisələrin epik təsviri məsələlərini tədqiqata cəlb etmək;

– Cəmiyyətdə baş verən sosial ziddiyyətlərin poeziyada əks olunma istiqamətlərini müəyyən etmək;

– Qəhrəman döyüşçü və düşmən obrazlarının mənəvi-etik keyfiyyətlərini tədqiq etmək;

– Qarabağ mövzusunda yazılan poetik örnəklərin sənətkarlıq xüsusiyyətlərini - dil, üslub, bədii struktur məsələlərini araşdırmaq.

Qarabağ çözümünün beynəlxalq səviyyədə düyünə düşdüyü, anti-azərbaycan qüvvələrin fəallaşdığı, erməni separatçılarının iri dövlətlər tərəfindən dəstəkləndiyi bir zamanda Qarabağ mövzusuna həsr edilmiş poeziyanın elmi tədqiqi və dəyərləndirilməsi Azərbaycan ədəbiyyatşünaslığının qarşısında duran mühüm vəzifələrdən biridir.

**Tədqiqatın obeykti və predmeti.** Tədqiqatın obyekti müasir Azərbaycan poeziyasında Qarabağ mövzusu, dövrü və mühiti şərtləndirən

narahat, sarsıntılı, ziddiyyətlərlə zəngin zamanın poetik ovqatıdır. Bu problem elmi-nəzəri aspektdə nəzərdən keçirilməklə yanaşı ədəbi prosesin tərkib hissəsi kimi təhlilə cəlb olunmuşdur.

Dissertasiyanın predmeti isə Qarabağ göynərtisini, acısını içdən, qəlbdən yaşayan böyük söz sənətkarlarımızdan Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Nəriman Həsənzadə, Nəbi Xəzri, Fikrət Qoca, Famil Mehdi, Məmməd Aslan, Hüseyn Kürdoğlu, Cabir Novruz, Zəlimxan Yaqub, Sabir Rüstəmxanlı, Vaqif Aslan, Ələmdar Quluzadə, Nurəngiz Gün, Ənvər Əhməd, Musa Ələkbərli, Firuzə Məmmədli və b. şairlərimizin Qarabağ mövzusunda yazdığı şeirlərdir.

**Tədqiqatın yeniliyi.** Tədqiqatın elmi yeniliyi ilk növbədə 1990-cı illərin tarixi mərhələ kimi araşdırılması, ədəbi-estetik problemlərin aktuallığı, Azərbaycan ədəbiyyatşünaslığının mövzu ilə bağlı nəzəri düşüncələrinin ümumiləşdirilməsi ilə şərtlənir.. Bu dönəm elə bir mərhələdir ki, ayrılıqda ədəbi dövr kimi dəyərləndirilən XX əsrin daxilində öz əlahiddəliyi ilə seçilir və xüsusi əhəmiyyət kəsb edir. Keçid dövrü kimi xarakterizə olunan bu mərhələ iki başlıca xüsusiyyəti ilə diqqət çəkir: milli müstəqilliyin bərpası kimi tarixi nailiyyətimizin əldə olunması və Dağlıq Qarabağ probleminin mübahisədən müharibəyə keçidi, ərazilərin işğal faktı.

Dissertasiyada 1990-cı illər poeziyasının hər iki mövzu istiqaməti sistemli araşdırılaraq geniş təhlil olunmuş və zəngin ədəbi materiallar əsasında ilk dəfə obyektiv dəyərləndirilmişdir.

Elmi işdə Qarabağ mövzusunun inikası problemi ilə bağlı toxunulmuş məsələlərə, müxtəlif çeşidli qəzet və jurnal məqalələrinə ümumi nəzər salınmış, müəlliflərin mövqelərinə münasibət bildirilmiş, bütövlükdə araşdırmanın tədqiqat tarixi incələnərək sorunun bu dissertasiya işinə qədər tam, mükəmməl öyrənilmədiyi vurğulanmışdır.

– Dissertasiyada 1990-cı illər poeziyasının mövzu çoxqatlılığı ilk dəfə sərgilənir, vətənpərvərlik, yurdsevərlik duyğusunun poetik dərki problemi ətraflı təhlil edilir.

– Şəhidlik mövzusunun formalaşması prosesinə, lirikada humanizm məsələsinin qoyuluşuna xüsusi diqqət yetirilir.

– Epik poemalarda Qarabağ probleminin işıqlandırılması mövzusu ilk dəfə ətraflı şəkildə şərh edilir, tarixi hadisələrin təsviri, sosial ziddiyyətlərin əksi məsələləri tədqiq predmetinə çevrilir, qəhrəman, cəsur döyüşçü obrazları, yaxud onlarla əks qütbdə dayanan qəddar düşmən, barbar, terrorçu obrazları ətraflı şəkildə təhlil olunur.

– Qarabağ mövzusunda yazılan əsərlərin sənətkarlıq xüsusiyyətləri - dil-üslub, bədii obrazlılıq məsələləri, folklor motivlərindən yaradıcı bəhrələnmə

kimi problemlərə xüsusi diqqətin yetirilməsi də tədqiqatın elmi yeniliklərini şərtləndirən amillərdir.

**Mövzunun öyrənilməsi**. Müasir Azərbaycan ədəbiyyatşünaslığında Qarabağ mövzusu yeni olmasına baxmayaraq müxtəlif aspektlərdən elmi-tədqiqat obyektinə çevrilmiş, maraqlı araşdırmaların nəticəsi monoqrafiyalarla, kitablarla sonuclanmışdır. Əlbəttə, 1988-ci ildən başlayan ictimai-siyasi hadisələri, Qarabağ müharibəsini Azərbaycan xalqının milli azadlıq və müstəqillik mübarizəsindən kənarda tədqiq və təsəvvür etmək mümkünsüzdür. Bu istiqamət yetərincə sistemli araşdırılmasa da, bəzi ədəbiyyatşünasların monoqrafiyaları, kitabları və elmi məqalələri diqqəti cəlb edir.

AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayevin Azərbaycan Yazıçılar Birliyinin 1992-ci il sentyabrın 19-da Gəncə şəhərində keçirilmiş pleniumunda "Müharibə və yaddaş ədəbiyyatı"[1] adlı çox dolğun məruzəsini Qarabağ mövzulu poeziya sahəsində yüksək ədəbi dəyərə malik ilk elmi-nəzəri araşdırma, mükəmməl bədii qaynaqlara, sabit və etibarlı qənaətlərə və ümumiləşdirmələrə əsaslanan ədəbiyyatşünaslıq əsəri də adlandırmaq olar. Dörd yarımfəsildən ibarət olan araşdırmada Qarabağa həsr edilən poeziya mövzu və sənətkarlıq baxımından obyektiv dəyərləndirilməklə yanaşı hadisələrə, işğal faktlarına fərqli münasibət, orijinal baxış sərgilənmişdir.

AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Tehran Əlişanoğlunun "Müstəqillik illəri Azərbaycan ədəbiyyatı" [2] adlı monoqrafiya altı mövzudan (fəsildən –M.N) ibarətdir. Dövlət müstəqilliyimizin bərpasından sonra ilk iki onilliyin ədəbi prosesi janrlar üzrə təhlil edilmiş, "Qarabağ savaşının ədəbiyyatda inikası" ayrıca fəsil kimi işlənmişdir.

Tanınmış ədəbiyyatşünas, filologiya üzrə elmlər doktoru Almaz Ülvi Binnətovanın 1997-ci ildə çap etdirdiyi "Poeziyada milli azadlıq duyğuları"[3] kitabında milli özünüdərk, milli oyanış problemləri araşdırılmış, milli istiqlal, azadlıq hərəkatının xalqdan ilham aldığı, gücləndiyi bir mühitdə yeni yaranan poeziyanın ictimai qayəsini, mənəvi-estetik xüsusiyyətlərini və psixolinqivistik emosionallığını, təsir gücünü təhlilə cəlb etmişdir.

Peşəkar publisist, filologiya üzrə elmlər doktoru Elçin Mehrəliyevin 2000-ci ildə nəşr olunan «Müharibə və ədəbiyyat»[4] kitabı Qarabağ uğrunda mübarizənin və 90-cı illər Azərbaycan ədəbiyyatının tədqiqinə həsr olunub.

---

[1] Qarayev Yaşar. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996, 712 s.

[2] Əlişanoğlu Tehran. Müstəqillik illəri Azərbaycan ədəbiyyatı (I hissə 1990-cı illər). Bakı: Qanun, 2013, 216 s.

[3] Binnətova Almaz Ülvi. Poeziyada milli azadlıq duyğuları, Bakı: Ağrıdağ, 1997, 116 s.

[4] Mehrəliyev Elçin. Müharibə və ədəbiyyat. Bakı: Azərnəşr, 2000, 228 s.

Monoqrafiyada vətənpərvərlik, azadlıq duyğularının təzahürünə münasibət bildirilmiş, problemə geniş kontekstdə yanaşılmış, Qarabağ hadisəsi ilə bağlı olan faktların təhlilinə xüsusi diqqət yetirilmişdir.

Filologiya üzrə fəlsəfə doktoru Hicran Nəsibovanın «Müasir Azərbaycan poeziyasında milli azadlıq hərəkatı» (1985-1995-ci illər) [1] adlı monoqrafiyası da XX yüzilliyin son on illik dövrünün bədii-tarixi mərhələ kimi səciyyəsini verən, poeziyaya xas poetik, fəlsəfi xüsusiyyətləri aşkara çıxaran əsər kimi təqdirəlayiqdir. Monoqrafiyada Qarabağ probleminin bədii-tarixi aspektini şərh edən müəllif bir çox məsələləri, o cümlədən meydan hərəkatının və imperiya siyasətinin əsas mahiyyətini konkret şeir nümunələri əsasında təhlilə cəlb etmişdir. Müasir poeziyada şəhidlik mövzusu, qaçqınlığın milli faciə kimi poeziyada səciyyəsi, 20 Yanvar faciəsi ilə əlaqədar etirazın, harayın, üsyanın poetik ifadəsi Hicran Nəsibovanın elmi işində ətraflı şəkildə araşdırılmışdır.

Bu mövzuda daha bir tədqiqat əsəri publisist Anar Vəziroğluna məxsusdur. Müəllifin 2002-ci ildə işıq üzü görən «Ayağa dur, Azərbaycan!» (Çağdaş Azərbaycan poeziyasında milli vətənpərvərlik mövqeyi. 1980-1990-cı illər)[2] kitabında Azərbaycan ədəbiyyatının keçdiyi çətin yol araşdırılmış, poeziyamızın azadlıq, istiqlal savaşındakı fəal iştirakı, mübariz mövqeyi təhlil edilmişdir. 1980-1990-cı illərdə Azərbaycanda mövcud olan ictimai-siyasi mənzərə, məmləkətdə baş verən hadisələr konseptual şəkildə öyrənilmiş, hadisələrin poeziyada inikası, bədii sözün Qarabağ hadisələrinə münasibəti dolğun formada təhlilə cəlb olunmuşdur.

Respublikamızdan kənarda Misirin Qahirə şəhərində fəaliyyət göstərən Eyn əş Şəms Universitetində həmin təhsil ocağının türk dili və ədəbiyyatı kafedrasının doktorantı Ayişə Əbdülvahidin 2015-ci ildə "Müstəqillik dövrü Azərbaycan hekayələrində Qarabağ probleminin təcəssümü (1991-2010)" mövzusunda doktorluq dissertasiyası müdafiə etməsi qürur hissi doğurur. Dissertasiya işində Azərbaycan yazıçılarının Dağlıq Qarabağ probleminə həsr olunmuş 50-dən çox hekayəsi tədqiqata cəlb edilmişdir. Tədqiqatda Qarabağ probleminin tarixi ictimai-siyasi və ədəbi-mədəni aspektdə təhlil olunub, hekayələr ideya-məzmun, problematika və bədii sənətkarlıq baxımından araşdırılıb[3].

---

[1] Nəsibova Hicran. Müasir Azərbaycan poeziyasında milli azadlıq hərəkatı (1985-1995-ci illər). Bakı: Azərnəşr, 2001, 100 s.
[2] Vəziroğlu Anar. Ayağa dur, Azərbaycan! (Çağdaş Azərbaycan poeziyasında milli vətənpərvərlik mövqeyi), Bakı: Ulu, 2002, 168 s.
[3] Mədəniyyət qəzeti, Bakı, 2015, 10 aprel, 7 s.

Ədəbiyyatşünas, filologiya üzrə elmlər doktoru Salidə Şərifovanın 2006-cı ildə çap etdirdiyi «Ədəbi prosesə nəzəri baxış» [1] tənqidi məqalələr toplusunun ikinci fəsli milli ədəbiyyatımızda Qarabağ mövzusuna həsr edilmişdir. Müharibə haqqında yazılan əsərləri ümumiləşdirib təhlil edən S.Şərifova XX əsrdə Azərbaycanda törədilən qanlı hadisələrin milli ədəbiyyatımızda lazımi səviyyədə əks edilmədiyini xüsusi olaraq vurğulamış, ümummilli problemimiz haqqında mükəmməl əsərlərin yazılmadığı qənaətinə gəlmişdir.

Ümumiyyətlə, müasir Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu görkəmli ədəbiyyatşünaslardan akademik Bəkir Nəbiyev, akademik İsa Həbibbəyli, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvlərindən Yaşar Qarayev, Tehran Əlişanoğlu, professorlardan Vilayət Quliyev, Vaqif Yusifli, Asif Rüstəmli, Alxan Bayramoğlu və b. elmi məqalələrində geniş əksini tapmışdır. Bu tədqiqatçıların Qarabağ mövzusu, müharibə ədəbiyyatı haqqında yazdıqları yığcam, lakonik olsa da, bitkin, peşəkar və səriştəli mütəxəssis fikirləri olduğu üçün o dövrün bədii söz sənətini təhlil etmək və dəyərləndirmək baxımından heç də az əhəmiyyət kəsb etmir.

Qarabağ problemi və onun ədəbiyyatımızda inikası məsələsi kifayət qədər ciddi, aktual və əhəmiyyətli mövzudur. Azərbaycanda müharibə haqqında zəngin poeziya nümunələrinin yaranmasına rəğmən bu bədii irsi ümumiləşdirərək elmi-nəzəri düşüncəni, sanballı araşdırmanı özündə əks etdirən dolğun, mötəbər ədəbiyyatşünaslıq əsərləri çox seyrəkdir. Yaranmış boşluğu aradan qaldırmaq məqsədilə «Müasir Azərbaycan poeziyasında Qarabağ» adlı dissertasiyanı bu istiqamətdə irəliyə atılmış bir addım hesab etmək olar.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat işi tarixi-müqayisəli metod və müasirlik prinsipi əsasında yazılmışdır. Tarixilik araşdırmanın tarixi aspektdən aparılmasında və tədqiqatda problemin tarixinin əhatə olunmasında göstərir. 1990-cı illər poeziyasında Qarabağ mövzusunun işıqlandırılması məsələsinə çağdaşlıq, müasirlik nöqteyi-nəzərindən diqqət yetirməklə də müasirlik prinsipinə əməl edilir.

Dissertasiyada nəzəri baza kimi müasir milli və dünya ədəbiyyatşünaslığının elmi təcrübəsinə istinad edilmişdir. Klassik ədəbiyyatşünaslığın təcrübəsi də diqqətdən kənarda qalmamış, əksinə, onun ehtiva etdiyi ənənə və meyarlar, ideya və prinsiplər rəhbər tutulmuşdur. Azərbaycan ədəbiyyatşünaslığının görkəmli simaları olan M.A.Dadaşzadə, B.Nəbiyev, Y.Qarayev,

[1] Şərifova Salidə. Ədəbi prosesə nəzəri baxış (Tənqidi məqalələr-2003-2005-ci illər). Bakı: Maarif, 2006, 210 s.

Ş.Salmanov və başqa müəlliflərin mövzu ilə bağlı nəzəri-metodoloji qənaətləri dissertasiyanın metodoloji əsasını təşkil edir.

**Tədqiqatın nəzəri-əməli əhəmiyyəti**. Dissertasiya işi əldə edilmiş nəticə və yenilikləri ilə həm nəzəri-elmi, həm də praktik əhəmiyyətə malikdir. Poeziya ədəbiyyatın mühüm sahəsi, fərdin lirik yaşam, lirik duyum hadisəsidir. Hər bir dövrün ədəbiyyatının öyrənilməsi ilk növbədə onun poeziyasının tədqiqindən başlayır. Bu yönümlü tədqiq həm dövrün xarakterik xüsusiyyətlərinin açılmasına yardımçı olur, həm də ədəbiyyat tarixinin yazılması üçün nəzəri zəminə çevrilir.

Dissertasiya işi özünün təhlil istiqamətləri, nəzəri qənaətləri ilə sonrakı tədqiqatlar üçün də elmi-nəzəri əhəmiyyət kəsb edir.

Dissertasiyanın praktiki əhəmiyyəti onun ali məktəblərin filologiya fakültələrində, müharibə dövrü poeziyasının, Qarabağ mövzulu ədəbiyyatın tədrisində, poetik fikrin inkişaf tarixinin öyrənilməsi yönündə elmi-əməli önəmi ilə şərtlənir.

**Dissertasiyanın aprobasiyası**. Tədqiqat işinin mövzusu Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasında təsdiq olunub, Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın başlıca məzmunu, elmi yenilikləri və nəticələri tədqiqatçının respublika və xarici ölkələrin nüfuzlu elmi jurnallarında, konfrans materiallarında çap etdirdiyi məqalələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

**Tədqiqatın ümuni məzmunu.** Dissertasiyanın birinci fəsli **"Qarabağ mövzusunun poeziyada inikası və ədəbiyyatşünaslıqda tədqiqat istiqamətləri"** adlanır. Tədqiqatın **"Qarabağ: ədəbi-tarixi aspektlər"** adlı birinci yarımfəslində vurğulanır ki, 1988-ci illərin əvvəllərindən respublikada milli azadlıq hərəkatı tədricən genişləndi və qarşısıalınmaz güc mərkəzinə çevrildi. Sosialist sisteminin dayaqlarının laxlaması rejim rəhbərliyinin iç üzünü açaraq zorakılığa, qəddarlığa, silahlı təcavüzə rəvac verilirdi. 1990-cı ilin yanvarında Bakıda törədilən qanlı qırğınlar, Qarabağ qətli-amları, ərazilərin işğalı dövlət müstəqilliyinə qovuşmağı arzulayan Azərbaycan xalqına güc nümayiş etdirmək, "dərs vermək" planının tərkib hissələri idi.

Zaman anlayışı bədii ədəbiyyatın etalonudur. «Lirika daha çox şairin subyektiv aləminin ifadəsi olsa da, onun ritmini, məzmununu bütün

dövrlərdə zaman təyin etmişdir və etməkdədir»[1]. Bədii ədəbiyyat xalq üçün taleyüklü hadisələri tarixən əks etdirmiş və bu gün də eyni missiyanı həyata keçirməkdə inadkar görünür. Elə bu səbəbdəndir ki, klassik söz sənətkarlarımızdan çağımızın yazarlarına qədər demək olar ki, bütün şairlərin yaradıcılığı tarixdə baş verən hadisələrə, ictimai-siyasi proseslərə güzgü tuta, sosial-psixoloji, bədii-estetik aspektdə təcəssüm etdirə bilib.

1980-ci illərin sonu 1990-cı illərin əvvəllərində Cənubi Qafqazda baş verən ictimai-siyasi hadisələr, Ermənistanın işğalçılıq siyasəti, azərbaycanlılara qarşı terror, işgəncə, zorakılıq hərəkətləri Azərbaycan poeziyasında Qarabağ mövzusunu gündəmə gətirdi, aktuallaşdırdı və qabartdı.

Qeyd edilməlidir ki, Qarabağ mövzusu Azərbaycan ədəbiyyatında yeni deyil, tarixin müxtəlif mərhələlərində böyük sənətkarlarımız Qarabağın gözəlliyini, qədimliyini, zəngin təbiətini, insanlarının qonaqpərvərliyini təsvir və tərənnüm etmişlər. Dünya alimləri öz əsərlərində Qarabağın - Şuşanın füsunkar təbiətindən, mədəniyyət ocağı kimi bənzərsizliyindən dəfələrlə söz açmışlar. Görkəmli mütəfəkkir Yaşar Qarayev «Tarix: yaxından və uzaqdan» kitabında yazır: «XVIII əsrin ortalarında (1747-ci ildə) Pənah xan tərəfindən müstəqil ərazi və dövlət vahidi kimi Qarabağ xanlığının əsası qoyulduqdan sonra Qarabağda mədəni, ədəbi-elmi mühit ən yüksək mənəvi intibah məqamına çatır. Məhz bu vaxtdan Qarabağın fitri-təbii gözəlliyi onun poeziya sənət hüsnü ilə bərabər bir ahəng, həmhüquq vəhdət və zirvə təşkil edir. Şeirlə təbiət, poeziya ilə musiqi, muğamla qəzəl bəlkə heç yerdə buradakı qədər harmoniya kəsb etməmişdir.

... «Əgər biri oxumağı bacarmırsa, deməli, Şuşalı deyildir». Yaxud, «Zaqafqaziyaya musiqi xadimlərini, şeir, musiqi və mahnıları füsunkar vətən olan Şuşa verdi»[2].

Yadlar, özgələr "Kürəkçay" (1805, 14 may), «Gülüstan» (1813, 12 oktyabr) və «Türkmənçay» (1828, 10 fevral) müqavilələri ilə yaddaşımıza qanı dayanmayan yaralar damğaladılar. Böyük bir xalqın taleyinə parçalanma, ilhaq, intizar, həsrət, ayrılıq yazıldı. İrandan 40 min erməni ailəsi Rusiya imperiyasının himayəsi ilə Qarabağa, Şuşaya, İrəvan xanlığının ərazisinə köçürüldü. Fitnəkar, məkrli niyyətlə hazırlanan, həyata keçirilən bu köç milli, etnik, ekoloji, mənəvi mühiti çirkləndirdi, harmoniyaya, tarazlığa ciddi ziyan vurdu. Azərbaycanlıların düşüncəsinə, müdrik deyiminə görə

---

[1] Mehrəliyev Elçin. Müharibə və ədəbiyyat (90-cı illər Azərbaycan ədəbiyyatı əsasında namizədlik dissertasiyasının avtoreferatı.Əlyazması hüququnda. Bakı, 2001, s.13.

[2] Qarayev Yaşar. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996, 712 s.

Qarabağ, Şuşa «Zaqafqaziyanın konservatoriyası», Azərbaycanın mədəniyyət paytaxtı missiyasını daşıyırdı. Üzeyir Hacıbəyli, Cabbar Qaryağdıoğlu, Xan Şuşinski, Əfrasiyab Bədəlbəyli, Niyazi, Bülbül, Süleyman Ələsgərov kimi dünya şöhrətli sənətkarlar, həmçinin Qasım bəy Zakir, Mir Möhsün Nəvvab, Xurşidbanu Natəvan, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli, Əhməd bəy Ağaoğlu, Firudun bəy Köçərli və b. ədəbiyyat korifeyləri Qarabağda dünyaya gəlmiş, boya-başa çatmış, mühitin bəxş etdiyi fitri-istedad sayəsində bəşər sivilizasiyasına misilsiz xidmətlər göstərmişdilər.

Mir Möhsün Nəvvabın «Təzkireyi-Nəvvab» təzkirəsində qarabağlı şairlərin Qarabağ mövzusunda yazdığı əsərlərindən poetik nümunələr yer almışdır. Bu nümunələrdə Qarabağın, Şuşanın əsrarəngiz gözəlliyi, təbiəti, mədəniyyət və poeziya paytaxtına çevrilməsi vəsf olunur, insanlarının xeyirxahlığı, qonaqpərvərliyi, mənəvi keyfiyyətləri tərənnüm edilmişdir.

Mirzə Haqverdi Qarabağinin "Kim aparar", Balaca Ağa Xan Qaradağinin "Dağıdar", Mirzə Növrəsin "Ölürəm", Məmo Bəy Məmayinin "Etdi sərməst məni..." adlı qəzəllərində Şuşa "Dürri-əşarə xiridar" (şeir incilərinin xiridarı) kimi yüksək dəyərə layiq görülür, söz sənətinin, ariflər məclisinin mərkəzinə, ocağına çevrildiyi vurğulanır.

Mirzə Həsən Qarabaği (1824-1904) əslən şuşalıdı. Klassik poeziyanı, ərəb və fars dillərini mükəmməl bilirdi. Xurşid Banu Natəvanın rəhbərlik etdiyi "Məclisi-üns" poeziya məktəbinin tanınmış nümayəndələrindən biridir. Məhəmməd Əli Tərbiyyətin, Mir Möhsün Nəvvabın, Məhəmməd ağa Müctəhidzadənin təzkirələrində Mirzə Həsən Qarabağidən bəhs olunmuş, onun yaradıcılıq nümunələrinə istinad edilmişdir. Şairin lirik şeirlər divanı günümüzə qədər gəlib çatmışdır. Onun Qarabağın "Dürri-yekta"sı, zəriflik mücəssəməsi və ləyaqət timsalı olan Natəvana həsr etdiyi şeirlər öz sanbalı, peşəkarlığı ilə maraq doğurur. Mirzə Həsən bəzən şairəni Şuşa ilə müqayisə edir, gözəllərin "müsabiqə"sində üstünlüyü birinciyə verir. M.H.Qarabaği "Natəvana məktub"unda yazır:

Sən Şişə içində türfə cansan,
Həm cism ilə can üçün təvansan.
Sənsiz nədi Şişənin nəmudu?
Gəlməz nəzərə onun vücudu[1].

Şeirdə Şuşa ucalıq və bənzərsizlik rəmzidir. Natəvan isə Şuşada "cism ilə can"ın ruhun ucalıq, təkrarsızlıq meyarıdır. Natəvan ona görə ucalığın bəyaz, işıqlı qatında qərarlaşıb ki, o məhz "Şişə içində türfə", misli-bərabəri

[1] Qarabaği Mirzə Həsən. Seçilmiş əsərləri. Bakı: "Şuşa" nəşriyyatı, 2000, 184 s.

olmayan candır, gözəllik, ləyaqət, mərhəmət və səxavət sahibidir.

Qarabağ xanlığının Bərgüşad mahalının Cicimli kəndində dünyaya gələn, təkkə-təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi, sufi şairi və təsəvvüf alimi Mir Həmzə Seyid Nigari Qarabaği (1805-1885) yaradıcılığında "vətən sevgisi imandandır" məramını uca tutaraq boya-başa çatdığı məkanı həssaslıqla, duyğusallıqla vəsf etmişdir.

Nə əcəb dövlət imiş seyri-şikari-Qarabağ,
Nə gözəl nemət imiş söhbəti-yari Qarabağ!
...Aləmi-cənnət imiş dari-diyari-Qarabağ.
İmdi bildim nə imiş vəsfi-həzari-Qarabağ[1].

Ağabəyim ağa Cavanşirin metafora üslubu, dəyərləndirmə meyarı və kədər, nisgil notları Mir Həmzə Seyid Nigarinin poeziyasında da aydın görünməkdə, duyulmaqdadır. "Aləmi-cənnət imiş dari-diyari-Qarabağ" misrasında şairin doğma yurduna, vətəninə, onun insanlarına, əsrarəngiz təbiətinə sevgisi, məhəbbəti təcəssüm olunur.

"Qara bağrım qanlı Qarabağımdır" – deyən Mir Həmzə Seyid Nigarini qayğılandıran problemlərin, erməni vəhşiliklərinin, qanlı qırğınların özü şahidi olmasa da, bütöv Qarabağda, xüsusilə Şuşada baş verən hadisələri Mir Möhsün Nəvvab nəzmlə qələmə almışdır. Onun "Şuşa qalasında baş vermiş erməni-müsəlman münaqişəsi münasibətilə" şeiri bu baxımdan xarakterikdir.

Köçərlini ermənilər əzəlcə yandırdılar,
Xəlfəli qapısında evlərə od qoydular[2].

Köçərli, Xəlfəli Qarabağda 1905-ci ildə erməni təcavüzünə ilk məruz qalan kəndlərdir. Mübaliğəsiz demək olar ki, M.M.Nəvvab ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin poetik mənzərəsini yaratmış, dəqiq faktlar əsasında bədii tarixini qələmə almışdır. Yazıldığı vaxtdan yüz ildən çox müddət keçsə də bu poetik nümunələr öz aktuallığını, bədii-emosional cazibəsini və sənət dəyərini qoruyub saxlamaqdadır.

Milli müstəqillik kimi tarixi nailiyyətimizlə yanaşı, bu dövr ədəbiyyatının qarşısında Qarabağ problemini, Qarabağ faciəsini işıqlandırmaq kimi çətin vəzifə borcu da dururdu. Bu mövzuda yazılan əsərlərə münasibət bildirən akademik Bəkir Nəbiyev yazır: "Qarabağ müharibəsi qanında, içində Vətən sevgisi olan bütün Azərbaycan xalqını dilə gətirdi. ...Azərbaycan ziyalılarının əksəriyyəti Qarabağ müharibəsinin gedişində, atəşkəs zamanında belə "qələmlərini süngüyə çevirərək" erməni cinayətkarlarının super faşizminin bəşər tarixində analoqu olmayan səhnələrini açıqlamağa

[1] Nəvvab Mir Möhsün. Təzkireyi-Nəvvab. Bakı: Azərbaycan, 1998, 560 s.
[2] Nəvvab Mir Möhsün. Divan. Bakı: "Şuşa" nəşriyyatı, 1999, 192 s.

təşəbbüs göstərmişlər. ...Türklər öz qoyunlarında şahmar ilan bəsləmişlər. Bunun nəticəsidir ki, B-Ayrum kəndində ana ilə üç aylıq körpənin yanmış skeletini belə sivil dünyaya qədərincə faş edə bilmədik! Əslində bu faktın özü erməni canilərinin, Azərbaycanlıların ... qanına nə dərəcə susadıqları haqqında kifayət qədər təsəvvür yarada bilərdi"[1].

1980-ci illərin sonunda Dağlıq Qarabağ problemi közərməyə, qanamağa başlayanda Azərbaycan poeziyası öz mövqeyini, istiqamətini müəyyənləşdirməkdə gecikmədi. Bədii ədəbiyyatımızın Qarabağ uğrunda çarpışmanı, müharibəni əks etdirməsi əslində xalqımızın milli azadlıq uğrunda mübarizəsi, milli dövlət quruculuğu prosesi ilə eyni vaxta düşsə də, poeziyamızda Vətən harayı, torpaqlarımızın bütövlüyü, milli suverenlik ilə bağlı narahatçılıq, həyəcan öz ifadəsini tapmaqda idi.

Azərbaycanın xalq şairi, istiqlal mücahidi Xəlil Rza Ulutürkün 1988-ci ildə yazdığı "Silahalan!" şeir ilə fikirlərini daha sərt, cəsarətlə bəyan edir, xalqı təcavüzkara, "arxalı köpəklərə" qarşı inamla açıq mübarizəyə səsləyirdi:

Bu sərt, ağır günlərdə
Mən - Ali Baş Komandan
olsam, olmasam belə
Azərbaycan adından
Əmr edirəm: Silahlan!

Nə qəm, kinlə silahlan!
Topdan, tüfəngdən üstün,
Tankdan, raketdən üstün
qeyrətinlə silahlan!
Arxalı köpəklərə nifrətinlə silahlan![2]

Şeirin hər misrası qılınc kimi sivrilib səmada toqquşur, ildirım kimi qığılcım saçır. Xəlil Rza haqqın səsi kimi hayqırır, haqsızlığa qarşı üsyan edir. Şair "Alınmışdır əlindən hətta ov tüfəngi də" – deyərkən Moskvanın Qarabağda yürütdüyü ikiüzlü siyasətinə, azərbaycanlılara qarşı ögey münasibətinə etiraz edir. Xalqın yalnız özünə arxalanmasını, "Silahsız dayanmağa bir qırpım da haqqı" olmamasını tufan kimi kükrəyən şair harayı ilə cəmiyyətə çatdırırdı.

Qarabağ mövzusu Xəlil Rza Ulutürk, Məmməd Araz, Nəriman Həsənzadə, Nəbi Xəzri, Fikrət Qoca, Famil Mehdi, Məmməd İsmayıl,

---

[1] Nəbiyev Bəkir. Seçilmiş əsərləri. 5 cilddə, I cild. Bakı: Çinar-çap, 2009, 492 s.
[2] Ulutürk Xəlil Rza. Davam edir 37… Bakı: Gənclik, 1992, 422 s.

Məmməd Aslan, Hüseyn Kürdoğlu, Cabir Novruz, Zəlimxan Yaqub, Sabir Rüstəmxanlı, İlyas Tapdıq, Ənvər Əhməd, Ələmdar Quluzadə, Vaqif Aslan, Firuzə Məmmədli, Nurəngiz Gün və digər qələm sahiblərimizin yaradıcılığından qırmızı xətt kimi keçir. Şairlərdən Nəriman Həsənzadə «Bütün millətlərə» şeirlər kitabı vasitəsi ilə «Beynəlxalq məhkəmə»lərə üz tutdu, Ələmdar Quluzadə öz doğma Xocalısını və Xocalıda həlak olan atasını itirəndən sonra bu ağır dərdləri poetik ilhamının gücü ilə «Qadan mənə, Qarabağ» adlı kitaba çevirdi, Zəlimxan Yaqub «Şair harayı» qopardı, Məmməd İsmayıl bütün şairlərimizi tökülən günahsız qanların qisasını almaq uğrunda döyüşə səslədi. O, Qarabağ müharibəsi başlayan ilk günlərdən etibarən «Bu qan yerdə qalan deyil», - deyərək tarixin haqsızlığına qarşı etiraz səsini ucaldan öncül sənətkarlarımızdan biri oldu. XX əsrin 90-cı illərinin məğrur, əyilməz Nəsimini soraqladı. Qarabağı "Azərbaycanın yaralı köksündə qara bağ"a bənzətdi. Poetik ilhamının gücü ilə qəlbi ehtizaza gətirən, duyğuları köz-köz edən təşbehlər, bənzətmələr, təzadlar yaratdı:

Xalqımın köksünə güllə dəyibdi,
Qan axır şeirimin misralarından,
- qan! qan! qan![1].

Həqiqətən də əsl şairin xalqının köksünə güllə dəyəndə, əlbəttə ki, şeirinin misralarından "qan axması" təbiidir. Bu hissi, duyğunu, böyük əzabı, dərdi bu cür poetik, təsirli ifadə etmək şairdən çox böyük istedad tələb edir.

Qarabağ mövzusu Zəlimxan Yaqub poeziyasının da əsas qollarından birini təşkil edir. Xalq şairinin yaradıcılığını geniş təhlil edən akademik İsa Həbibbəyli müstəqilliyimizin ilk illərində, kəşməkəşli bir dövrdə onun şəxsiyyətini və şeirlərini yüksək dəyərləndirərək yazır: "...Zəlimxan Yaqubun çağlayan lirikası ana Vətənin, müstəqil Azərbaycanın yeni dövrünün mənalı və düşünülmüş poetik tərcümeyi-halından ibarətdir. Zəlimxan Yaqub müstəqillik uğrunda mübarizənin kəşməkəşli hadisələrini sadəcə müşahidə etmir, o, daim irəli baxır, işığa doğru yol gedir, oxucularını da var gücü ilə bu günə və sabaha inam duyğuları üstündə kökləməyə çalışır.

Dur ayağa, məmləkətim", "Qələbə", "Kəlbəcərdən gələn qarı", "Əsgər qardaşıma məktub" – deyə haray salan şairin böyük qələbəyə inamı da böyükdür:, "Layla, Xocalım layla", "Bu gecə yuxuma girmişdi Şuşa", "Şəhid qanı" və s. şeirlərində müstəqilliyin çətin və şərəfli yollarını bacarıqla əks etdirmişdir"[2].

Akad.İ.Həbibbəyli qeyd etdiyi kimi Z.Yaqub "şeirlərində müstəqilliyin

---

[1] İsmayıl Məmməd. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1992, 300 s.
[2] Həbibbəyli İsa. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, 696 s.

çətin və şərəfli yollarını"n poetik tarixini, bədii salnaməsini yaradırdı. O, «Torpaq yanğısı» poemasında Qarabağ müharibəsi mövzusuna daha geniş, əhatəli, geniş prizmadan yanaşaraq, problemi daha qlobal müstəviyə çıxarır, dünyada nə qədər torpaq, doğma yurd-yuva itirən xalq varsa hamısına üz tutur, bütün bəşər övladlarının, bütün dövlətlərin bu məsələyə diqqət yönəltməsini, çıxış yolu axtarıb-tapmasını istəyir. O, bütün xalqları öz yurdlarına sahib çıxmağa, torpaq uğrunda ölüm-dirim savaşına səsləyir. Öz poetik ruhunun köməyi ilə vətənsiz, yurd-yuvasız yaşamağın mənasızlığını oxucuya anlatmağa çalışırdı.

Çağdaş Azərbaycan ədəbiyyatında Qarabağ mövzusunda yazıb-yaradan şairlərimizin içərisində Ələmdar Quluzadə istedadı, zəhmətsevərliyi və bədii irsinin zənginliyi ilə seçilir. Bu bəlkə də şairin yaşadığı şəxsi faciələrin, ağrının poeziyasında yanğı kimi meydana çıxmasından irəli gəlir. Ələmdar Quluzadə Xocalı soyqırımının canlı şahidi olub, doğmalarını, əzizlərini bu faciədə itirib. Xocalı soyqırımının miqyası, faciə törədilən zaman istifadə olunan qəddar, amansız metodlar haqqında sərt bəyanat verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hadisəni "bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət" adlandıraraq demişdir: "Yüzlərlə dinc sakin görünməmiş işgənclərlə öldürüldü, uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi, onların meyitləri təhqir olundu. XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın
hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət idi.

Bu gün artıq heç kimə sirr deyil ki, Xocalı faciəsi davakar ermənimillətçi lərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi."[1]

Bu qanlı faciəni bütün dəhşətlərilə yaşayaraq poeziyaya gətirmək Ələmdar Quluzadənin tale yazısına çevrilib – desək yanılmarıq. Şairin doğulub boya-başa çatdığı Xocalıya həsr etdiyi şeirlər ayrı-ayrı vaxtlarda mətbuat səhifələrində əks-sədaya çevrilmişdir. Bu baxımdan görkəmli ədəbiyyatşünas-alim Vilayət Quliyevin şairin "Gözlə, Xocalı, gözlə" şeirindən təsirlənərək yazdığı: "Gözlə, Xocalı, gözlə" şeirini ürək ağrısı ilə oxudum. Belə şeiri yalnız son Xocalı vəhşətinin bütün iztirablarını öz həyatında, yaxınlarının həyatında yaşamış bir adam yaza bilərdi. Bəlkə də bu fikrim o qədər də dəqiq olmadı. İnanıram ki, sən Xocalıda, Qarabağda heç bir yaxınını itirməsən də bu böyük dərdi eyni dərəcədə həssaslıqla, ürək ağrısı

---

[1] Əliyev İlham. Bu, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı cinayət idi. "Azərbaycan" qəzeti, Bakı, 2010, 26 fevral, s.2.

ilə, qəzəb və hiddətlə qələmə alardın”[1].

Həqiqətən də Ələmdar Quluzadənin şeirlərində haqsızlığa, ədalətsizliyə, vətənə xəyanət, xəyanətə nifrət hissləri olduqca təbii ifadə olunub. ADMİU-nun professoru Asif Rüstəmli şair Ə.Quluzadənin “Şəhid şəhər” əsərində nəinki yaşadığımız dəhşətli tarixi faciəmizin sərgiləndiyini bildirir, onu həmçinin baş verənləri məharətlə, bədii formada təcəssüm etdirən yaradıcılıq nümunəsi sayır: “Şəhid şəhər”XX əsrin sonunda qəddarlığın və zülmün ölçüsüzlüyü ilə ədalətli və demokratik ölkələri heyrətə salan Xocalı soyqırımının şərəfinə ucaldılmış ilk bədii abidədir”[2].

1990-cı illərdə Azərbaycan poeziyasında Qarabağ mövzusunda yazmayan şair tapmaq müşkül məsələdir. Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Qabil, Famil Mehdi, Musa Yaqub, Zəlimxan Yaqub, Nüsrət Kəsəmənli, Məmməd İsmayıl, Hüseyn Kürdoğlu, Sabir Rüstəmxanlı, Vaqif Aslan və b. qələmində xalqımızın iztirabları poetik, təsirli və ağrılı şəkildə qələmə alınıb. Bunlarla yanaşı Qarabağ mövzusunda şeirləri diqqət cəlb edən ötən əsrin 90-cı illərin gənc şairlərindən Rüstəm Behrudi, Əlisəmid Kür, Vəli Xramçaylı, Sabir Sarvan, Avdı Qaşqarı, Murad Köhnəqala, Səməd Qaraçöp, Qəşəm Nəcəfzadə, Məcnun Göyçəli, Flora Xəlilzadə, Bahar Bərdəli və başqalarını qeyd etmək olar.

Ədəbiyyatşünas alimlərin, tənqidçilərin Qarabağ mövzusunda yaranan poeziyanın tədqiqi istiqamətində apardıqları araşdırmalar eyni mövzulu ədəbi irsimizin aktuallığını, milli gərəkliliyini önə çəkməklə yanaşı bu sahənin dərin qatlarına işıq salınması imkanlarını daha da genişləndirmişdir.

Dissertasiyanın birinci fəslinin ikinci yarımfəsli **“Azərbaycan poeziyasında Qarabağ mövzusu: məsələnin qoyuluşu və təkamül prosesləri”** adlanır. Tədqiqatda vurğulanır ki, XX yüzilliyin 80-ci illərinin sonunda cəmiyyətimizdə baş verən ictimai-siyasi dəyişikliklər, milli özünəqayıdış prosesi, düşüncə özgürlüyündə yeniləşmə bədii ədəbiyyata, poeziyaya da təsirsiz qalmadı. Xüsusilə Qarabağ mövzusunda yazılan şeirlər poetik sferada yeni keyfiyyətlin meydana çıxdığından xəbər verirdi.

Dövrün, zamanın poeziyasında əsas mövzu vətən həsrətindən, vətənə olan yüksək ülvi məhəbbətdən, şəhidlikdən, qaçqınlıqdan, didərginlikdən, düşmənə nifrət, vətənin müdafiəsinə çağırış hissindən yaranır və ən gözəl, incə, ali insani hiss və duyğuların bənzərsiz ifadəsinə çevrilirdi. Torpaq, vətən uğrunda mübarizə, şəhid oğul və qızlarımızın yaşatdığı ağrı-acı,

---

[1] Quliyev Vilayət. “Gözlə, Xocalı, gözlə” şeirinin müəllifinə açıq məktub. 525-ci qəzet, Bakı, 1995, 3 mart.

[2] Rüstəmli Asif. Ədəbi istiqlalımız. Bakı: Elm, 2004, 384 s.

müsibət, kədər hissi və eyni zamanda haqqa, qələbəyə inam əhval-ruhiyyəsi poetik düşüncələrə yol açan, onu mənalandıran və qeyri-adi lirik lövhələrin yaranmasına səbəb olan problemlər sırasında idi. Bu mövzuda Bəxtiyar Vahabzadə, Cabir Novruz, Nəbi Xəzri, Qabil, Zəlimxan Yaqub, Nüsrət Kəsəmənli, Məmməd Aslan, Məmməd İsmayıl, Vaqif Aslan, Firuzə Məmmədli, Nurəngiz Gün və başqalarının yazdıqları əsərlər dövrün, mühitin barıt qoxulu ovqatını canında-qanında yaşadan dəyərli bədii nümunələrdir.

Azərbaycan poeziyası 1990-cı illərdə nəinki şəhidlik mövzusunda ədəbiyyat, şəhid obrazlarını yaratdı, həmçinin şəhidlik ağrısını öz talelərində yaşayan şairlərini də «yaratdı». Bir çox sənətkarlarımız, alimlərimiz öz oğullarını vətən uğrunda şəhid verdilər. Məsələn, Xəlil Rza Ulutürkün oğlu Təbriz Xəlilbəyli, Qaçay Köçərlinin oğlu Elcan Qaçayoğlu, Sabir Əhmədlinin oğlu Məhəmməd Əhmədli, professor İzzət Rüstəmovun oğlu Məzahir Rüstəmov, akademik, şair Aslan Aslanovun oğlu Zahid Aslanov kimi şəhid olmuş oğulların ərənliyi, cəsurluğu, qəhrəmanlığı millət, vətən uğrunda göstərdiyi fədakarlıq «müsəlləh əsgər» adına ən layiqli nümunədir. İctimai kədərlə, müsibətlə yanaşı şəxsi faciələr şairlərimizin yaradıcılığında izsiz qalmamış, gözlənildiyi kimi, sözün poetik təsir gücünü qat-qat artırmışdır.

İstiqlal şairi Xəlil Rza Ulutürk doğma oğlunun Azərbaycanın suverenliyi uğrunda şəhidliyini təmkinlə, ictimai hadisə kimi qarşılamışdır. Şairin oğlunun həlak olmasına həsr etdiyi silsilə şeirlərində demək olar ki, fərdi dərd, kədər motivləri öz yerini mübarizlik, əzəmət, sarsılmazlıq duyğularına təhvil vermişdir. Çünki Xəlil Rzaya görə şəhidlər torpağa təsadüfi ölü kimi deyil, milli mənəvi xəzinə kimi dəfn olunurlar:

Şəhidlər torpağa ölü gibi yox,
Bəlkə basdırılır xəzinə gibi[1].

Ümumiyyətlə, şair oğlunun Vətən uğrunda şəhid getməsindən qürur hissi duyduğunu, Odlar yurdunun Təbrizləri, Ülviləri, Elcanları, Məzahirlərin yenidən doğulacağını yüksək pafosla, sarsılmaz inamla tərənnüm etmişdir. Xəlil Rza şəhidləri qoynuna alan ulu torpağa üz tutaraq böyük əminliklə bəyan edirdi.

1980-ci illərin sonlarından başlayaraq xalqımızın taleyinə qara hərflərlə yazılan qaçqınlıq poeziyamızda da öz əksini tapmağa başladı. Qaçqınlıq mövzusu xüsusilə Famil Mehdi poeziyasında özünəməxsus boyalarla əks olunmuşdur. Müəllifin «Körpə qaçqın» (1995), «Qaçqınlar, ölməyin aman günüdür» (1995), «Mənim qaçqın anam Bakıda öldü» (1994) kimi şeirlərində

---

[1] Ulutürk Xəlil Rza. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2014, 608 s.

qaçqınlıq həyatı və onun iztirabları ön plana çəkilmişdir.

Ümumiyyətlə, Famil Mehdinin qaçqınlıq mövzusunda yazdığı şeirlər kəmiyyət etibarilə çox, keyfiyyətcə dəyərlidir. Hər bir əsərdə müəllif qaçqınların məşəqqətli həyatını dərindən duyub, özününküləşdirərək, daha doğrusu bu həyatın içərisində olduğu və yaşadığı üçün daha təbii, daha real əks etdirə bilmiş, təkrarsız mənzərələr yarada bilmişdir. «Qaçqınlar, ölməyin, aman günüdür» şeirində şair içindəki odu, alovu sözlərə, sətirlərə sığışdırmaqda çətinlik çəkir. «Yamandır yaşamaq, urvatsız ölmək, yurd-yuvasız ölmək, elatsız ölmək» ifadəsilə dərin milli kimliyi, kökü çox uzaqlara gedən inamları olan bir xalqın düşüncəsində yurdsuz ölməyin urvatsız ölməklə eyni tutulduğunu çox dəqiq ifadə edərək ağrının böyüklüyünü çatdırmaq məqsədinə nail ola bilir. Şeirdə əsas ideya yenə də mübarizə ruhunu aşılamaq, döyüş əzmini oyatmaqdır.

XX yüzillikdə - bir əsrdə dörd dəfə didərginliyin məşəqqətlərinə ürcah olmuş soydaşlarımızın fiziki və mənəvi ağrı-acıları poeziyamızın qanına, ruhuna işləyib – desək yəqin ki səhv etmərik. Demək olar ki, didərginlik mövzusu bütün şairlərimizin yaradıcılığında öz bədii əksini tapıb. B.Vahabzadə, C.Novruz, N.Xəzri, Qabil, Z.Yaqub, H.Kürdoğlu, S.Rüstəm-xanlı, M.Yaqub, M.İsmayıl, M.Aslan, N.Kəsəmənli, Ə.Quluzadə və başqa şairlərimiz didərginliyin ağrı-acılarını, yurd-ocaq həsrətini, vətən göynərtisini poetik sözün qüdrətilə öz yaradıcılıqlarında böyük sənətkarlıqla verə bildilər.

XX yüzilliyin 80-ci illərinin sonunda, 90-cı illərinin əvvəllərində Azərbaycan xalqı erməni faşistlərinin əsassız ərazi iddiaları və etnik təmizləmə siyasətinə qarşı ilkin olaraq sözlə savaşa atıldı. Baş verən qanlı hadisələr təbii olaraq poeziyamıza yurd itkisi mövzusunu da gətirdi. Bu dövrdə söz, sənət adamlarımız sözün gücünə arxalandılar. Torpaq, vətən itkisi mövzusunda şairlərimiz günün bədii-estetik tələblərinə cavab verən dəyərli şeirlər yazıb yaratmışlar.

Hüseyn Kürdoğlunun yaradıcılığında Qarabağ dərdi Göyçə, Zəngəzur kədəri ilə əl-ələ verir, birləşir, bütövləşir, ictimai məzmun kəsb edir. Tarixi-mizin və taleyimizin varağına dərdlə hopdurulan bu gerçəklik şairin yeni dərdi, nisgili ilə həmahəng olub fəryad qoparır.

1990-cı illər poeziyasında şəhidlik, qaçqınlıq, didərginlik, yurd-torpaq itkisi mövzuları ilə bərabər müqəddəslərin, doğmaların, əzizlərin məzar itkisi mövzusuna da rast gəlinir. Bu mövzu bir çox şairlərimizin yaradıcılığında önəmli yer tutur. And yerimiz, inanc, güvənc yerimiz olan qərib, məzar, türbə mövzusu Zəlimxan Yaqub, Ələmdar Quluzadə, Əli Rza Xələfli, Əli Mahmud, Oqtay Zəngilanlı yaradıcılığında səmimiliyi, emosionallığı, duyğusallığı, özünəməxsusluğu ilə seçilir.

Müstəqilliyimizin ilk illərində Qarabağda baş verən hadisələr, bu bölgəyə bitişik olan yeddi rayonun işğalı, soyqırımı, etnik təmizləmə prosesi bütövlükdə Azərbaycanın azadlığına, istiqlalına, dövlətçiliyinə qarşı həyata keçirilən təhdid, təzyiq, xəyanət və düşmənçilik aksiyası idi. 1990-cı illər poeziyası isə oxucunu bu aksiyaya qarşı mübarizəyə, düşmən əsirliyində qalan müqəddəs ocaqlarımızı, torpaqlarımızı azad etməyə, haqsızlığa, ədalətsizliyə, zorakılığa yox deməyə səsləyirdi...

Dissertasiyanın birinci fəslinin üçüncü yarımfəsli **"1990-cı illər poeziyasında vətənpərvərliyin poetik dərki"** adlanır.

Vətənpərvərlik anlayışı özündə müxtəlif istiqamətlərdə vətənə, millətə sevgi hissini, ona xidmət etmək məsuliyyətini birləşdirsə də, bunların zirvəsində əməli fəaliyyət - Vətən üçün həyatını qurban verməyə hazır olmaq missiyası dayanır. Bu, hiss, duyğu vətənpərvərliyin ən uca və ali təcəllasıdır. Bəşər övladı Vətənə xidmət etməyin bundan uca zirvəsini fəth etməyib.

Azərbaycan xalqının igid oğullarından Cavanşirin, Babəkin, Koroğlunun, Cavad Xanın yadelli işğalçılara qarşı mübarizəsi unudulmaz keçmişimizdirsə, bu günümüzün qəhrəmanlıq tarixini bəzəyənlər Qarabağ müharibəsində hünər göstərən oğul və qızlarımız, ölümləri ilə ölümsüzlüyə qovuşan şəhidlərimizdir.

1990-cı illər Azərbaycan poeziyasında vətənpərvərlik hissinin ləyaqətlə vəsf və lazımı səviyyədə tərənnüm olunması üçün dövrə, tarixi hadisələrə çox müraciət olunmuş, keçmiş qəhrəmanlıq dərsləri, qəhrəman obrazları bu çağın problemlərinin həlli üçün üz tutulması vacib olan ən böyük mənəviyyat timsalına çevrilmişlər. Tarixə vətənpərvərlik prizmasından yanaşaraq onu müasir zamanla yaradıcılıqla bağlayan şairlərdən biri də Nəbi Xəzridir. Onun üçün vətən – göz açdığın, ayaq tutub yeridiyin, havasından nəfəs aldığın, suyundan içdiyin, insanları ilə birgə yaşayıb-yaratdığın dünyadır. Bu mənada N.Xəzri poeziyasının həyat meyarı vətənpərvərlik eşqidir. Şairin demək olar ki, əksər şeirlərində vətənpərvərliyin ruhu döyünür, nəbzi çırpınır. Şair insan vicdanını vətən keşiyində ayıq-sayıq durmağa səsləyir. Və yaxud: "…Şair Nəbi son nəfəsdə, Bu torpağı qucub gedər!." Bu iki misra şairin torpaq qədri bilməsinə, ona minnətdar olmasına və son nəfəsində ana torpağı bağrına basacağına, qucacağına dəyişməz şair vədi kimi səslənir. Əslində, bu söz hər bir Azərbaycan vətəndaşına aiddir.

Nəbi Xəzri lirikasına xas olan həzinlik, vəziyyətlə, əhval-ruhiyyə ilə bağlı həsrət duyğusu Qarabağ mövzusunda yazdığı şeirlərdə də qabarıq nəzərə çarpır. Xüsusilə, "Səni görəcəyəm haçan Qarabağ?" şeirində şairin həsrəti, nisgili, intizarı köç edən durna qatarı kimi ürəkləri qübarlandırır.

X.R.Ulutürkün 1990-cı illərdə yazdığı şeirlərdə əsas obraz mübarizə

edən Azərbaycandır. X.Rzanın müharibə dövrü lirikasında Qarabağ problemi aparıcı xətt kimi boy göstərir. Şairin bütün şeirlərində Azərbaycan xalqının mərdliyi, əzmkarlığı, gələcəyə böyük ümidi optimist duyğularla tərənnüm edilir. Vətən və onun müqəddəratı, Qarabağ uğrunda aparılan müharibə, onun ağrı-acıları, vətənin ərazi bütövlüyü, toxunulmazlığı X.Rza poeziyasında güclü pafosla əks olunmuşdur.

1990-cı illər Azərbaycan poeziyasında torpağa, vətənə bağlılıq hissi, vətəndaşlıq əqidəsi və vətənpərvərlik ruhu xalq şairi Məmməd Araz yaradıcılığının da əsas xüsusiyyətlərindən biridir. Şairin poeziyasında milli hiss, xalqa, doğma torpağa bağlılıq, vətənpərvərlik duyğuları əsas leytmotivi təşkil edir. Bu dövrdə şairin poeziyası xalqımızın vətəndaşlıq hissini gücləndirir, milli və bəşərilik duyğusunu ləyaqətlə təmsil edirdi. Onun şeirlərində təbii olaraq vətənpərvərliyin vəsfi yeni poetik axtarışlar uğurlarla nəticələnir. Şairin 1992-ci ilin əvvəllərində ermənilərin torpaqlarımıza təcavüzünün genişləndiyi bir vaxtda yazdığı «Ayağa dur, Azərbaycan!» adlı şeiri dərin məna yükünə, yüksək daxili pafosa malikdir:

Nə yatmısan qoca vulkan, səninləyəm!
Ayağa dur, Azərbaycan, səninləyəm![1]

Məmməd Araz öz poeziyasında yaradıcılıq imkanlarını doğma xalqının qəhrəmanlıq xarakterini və salnaməsinin yeni, unudulmaz səhifələrini açmağa yönəldir. Digər şairlərimizdə olduğu kimi, M.Araz poeziyasında da Vətənin lirik obrazı möhtəşəmlik və genişlik əlamətləri ilə diqqəti cəlb edir. Şairin lirik təsvirlərinə hopmuş vətənpərvərlik ideyaları hər poetik baxışda özünü hiss etdirir.

Məmməd Arazın Qarabağ müharibəsinin ilk illərində yazdığı "Bizi Vətən çağırır", "Murova qar yağırdı", "Bu millətin dərdi-səri"Bu, insan adlanan insan", "Əsgər oğlu", "Əsrin yalanları, əsrin vədləri" və s. şeirlərin qayəsini vətəni düşməndən xilas etmək, son damla qana qədər döyüşmək və haqq işi uğrundakı qələbəni təmin etmək ideyası təşkil edir.

1990-cı illər Qarabağ mövzusunda yaranan şeirlərdə vətənpərvərlik hissinin ən bariz nümunələrinə şair Famil Mehdi yaradıcılığında təsadüf edilir. Müharibənin ilk illərində yazdığı "İrəli, irəli, ancaq irəli!", "Qarabağdan əlini çək!", "Silahlan, silahlan, silahlan əsgər!" çağırış ruhlu şeirləri ilə şair Vətən övladlarını haqq, ədalət uğrunda savaşa səsləyirdi.

Qarabağ uğrunda xalqımızın cəlb edildiyi müharibənin poeziyada poetik dərki nöqteyi-nəzərindən Məmməd Aslanın şeirləri də ədəbiyyatımızda layiqli yer tutur. Şairin müharibə dövründə qələmə aldığı "Hardasan yurd

---

[1] Araz Məmməd. Yol ayrıcında söhbət. Bakı: Azərbaycan, 1997, 200 s.

sahibi", "Əhriməni", "İtirdiyimiz cənnət", "Haradasınız", "Haydı, qoç Koroğlu", "Vətən və biz" və s. şeirlərində vətənpərvərlik mövzusu əsas keyfiyyət göstəricisi sayılır. Qarabağ torpağının müdafiəsində müqəddəs vətəndaşlıq borcu, Qarabağın taleyi məsələsi şairin bu mövzuda yazdığı şeirlərinin əsas poetik xəttini təşkil edir.

Qarabağ mövzusuna həssaslığı ilə seçilən istedadlı şairlərdən biri də Vaqif Aslandır. Onun sinələri qabardan, könülləri duyğulandıran, yaddaşlara dərin iz salan vətənpərvəlik ruhu aşılayan Qarabağ qayəli əsərlərini nəzərdən keçirərkən "Şəhid köynəyi", "Kərbəla faciəsi", "Gəlmədi", "Ay səni", "Qaçqın mahnısı" və s. şeirlərini yada salmamaq mümkünsüzdür.

Yaradıcılığında qədim milli ənənələrə, mənəvi-əxlaqi dəyərlərə üstünlük verən Vaqif Aslan "Kişilər" şeirində demək olar ki, Qarabağ müharibəsinin geniş panoramını əks etdirməyi bacarmış, şairin "Kənd-kənd, şəhər-şəhər axırıq daha, Axana qıraqdan baxırıq daha" – misralı hayqırtısı əsərin yazıldığı məlum tarixi dönəmdə genişmiqyaslı acı görüntünün gerçəkliyini, milli biganəliyi və soyuqqanlılığı təsdiqləyir.

1990-cı illərdə müasir Azərbaycan poeziyasında vətənpərvərlik mövzusunda uğurlu poetik nümunələr yaradan şairlərdən biri də Əjdər Oldur. Əjdər Olun bu mövzuda yazdığı şeirlərdə diqqəti çəkən əsas amil buradakı lirik «mən»in, lirik qəhrəmanın mənəvi varlığının milli yaddaşla, əxlaqi-mənəvi dəyərlərlə bilavasitə əlaqədə, vəhdətdə olmasıdır.

Beləliklə, 1990-cı illər Azərbaycan poeziyasında vətən obrazı böyük önəmə malik olmuşdur. Şairlərin vətənpərvərlik ruhunda yazdığı şeirlərdə qarşıya qoyulmuş problemlər fəlsəfi prizmadan nəzərdən keçirilmişdir. Qarabağ mövzusunda yazılmış lirik poeziya nümunələri onu göstərir ki, Azərbaycan ədəbiyyatında bu mövzu yetərincə öz əksini tapmışdır və aparılan haqq işi uğrunda mübarizəsinin ifadəsinə önəm verən üsyankar və mübariz poeziyanın xalqda döyüş ovqatının güclənməsi işində rolu danılmazdır.

Elmi işin ikinci fəsli **"Qarabağ mövzusu lirikada"** adlanır. Bu fəslin birinci yarımfəslində **"Qarabağ: müharibə poeziyası"** mövzusu tədqiq edilir.

1990-cı ilin 20 Yanvar qırğınında Bakıda şəhid olmuş övladlarımızın məzarı yanında deyilən bayatılar, ağılar, öygülər, oxşamalar lirik şeirin ən bariz nümunələri kimi müasir poeziya tarixinə dərin iz saldı. Bu dövrün poetik salnaməsi ədəbiyyat tariximizə qanlı səhifələrlə yazıldı.

Məmməd Aslanın «Ağla, qərənfil, ağla» şeiri başdan-başa ağrıdan, müsibətdən, ələmdən yoğrulmuş fəryaddı. Onu poetikləşdirən, aktuallaşdıran və daha təsirli edən amil bu acının, faciənin bir fərdin deyil, bütün xalqın,

cəmiyyətin kədəri olmasında, ictimai mahiyyət kəsb etməsindədir.

Xalqın işğalçılara, erməni terrorizminə qarşı mübarizədə əzminin, iradəsinin, döyüş ruhunun qabardılmasında ədəbiyyatın, xüsusilə poeziyanın xidməti şübhəsizdir. Tənqidçi-ədəbiyyatşünas Tehran Əlişanoğlu "Milli varlığın ifadəsi olan ədəbiyyat"ın Qarabağ hadisələri dövründə fəallığını, yaddaşın oyanışı və vətənpərvərlik hissinin yüksəlməsi sahəsindəki rolunu vurğulayaraq yazırdı: "Qonşular tərəfindən ərazisinin iyirmi faizinin işğalı və qədim-əzəli torpağı olan Dağlıq Qarabağın qəsbi faktı ilə Azərbaycan xalqı, dövləti, cəmiyyəti heç zaman barışa bilməzdi, bugünəcən də barışmır."[1]

Poetik gərginlik elektrik cərəyanı kimi ilk növbədə şairlərin qəlbinin tellərindən, şeirlərin misralarından oxucu ürəyinə ötürülür. Düşüncələr gərginliyində yaşayan və gərginliyi poetik düşüncələrə çevirən sənətkarlarımızdan biri də xalq şairi Bəxtiyar Vahabzadədir. Onun Qarabağ mövzusunda yazdığı şeirlərində Şuşa, Cıdır düzü yada salınır, zorakılıq, bədxahlıq ittiham edilir. Xalq şairinin 1994-cü ildə yazdığı "Oxuma, bülbül" şeirində nəğmələrin tərənnümçüsü statusunda bülbül əsas obraz kimi səciyyələndirilmiş, Qarabağ həsrətini, intizarını onun timsalında dilə gətirmişdir. Şair bülbülə bu bahar da oxumamağı, Şuşanın qara günlərini düymağı yada salır.

Lirikada Qarabağ mövzusu daha geniş və müfəssəl şəkildə "Şuşa" nəşriyyatında iki cilddə nəşr edilmiş "Şuşa nəğmələri" (Bakı-2001) poeziya almanaxında oxuculara çatdırılmışdır. Almanaxda 200-dən çox klassik və çağdaş şairlərimizin lirik nümunələri toplanmışdır. Klassik şairlərimizin şeirlərində Şuşanın sevincli, nəğməli günləri tərənnüm olunursa, 1990-cı ildən sonra yazılan şeirlərdə qəm, kədər, dərd motivləri üst qata, ön cərgəyə keçir. Təbiət gözəlliklərinin vəsfi də, sevincli, unudulmaz günlər də yalnız xatirələrdə yaşarılıq qazanır.

İşğal altında qalmış Qarabağın, onun müxtəlif kəndlərinin xarabazara çevrilməsi, sərt qayalar üzərində ucalan Şuşanın satqınlıq önündə aciz qaldığının təsirli bədii əksi Nəbi Xəzrinin "Şuşa" şerində də yer almışdır.

Görkəmli şairimiz Nəriman Həsənzadənin də yaradıcılığında Qarabağ mövzusu, vətənpərvərlik hissinin tərənnümü xüsusi bir xətt kimi keçir. Hətta obrazlı şəkildə söyləməli olsaq, sanki şairin lirikası vətənpərvərlik duyğularından qurulmuş sütunların üzərində bərqərar tutub. İçdən gələn səmimiyyəti, sadəliyi və xalq dilinə yaxınlığı ilə bu lirika oxucuların ruhuna çox doğmadır. Bu doğmalıq N.Həsənzadə yaradıcılığını asanlıqla dildən-dilə, eldən-elə, yaddaşdan-yaddaşa ötürə bilir. N.Həsənzadə Qarabağ problemini

[1] Əlişanoğlu Tehran. Müstəqillik illəri Azərbaycan ədəbiyyatı (1-ci hissə 1990-cı illər). Bakı: Qanun, 2013, 216 s.

sadəcə ağrı-acı, kədər və şikayət notları üzərində təhlilə çəkməklə deyil, fikirlərə, düşüncələrə siyasi çalarlar verməklə, problemin siyasi köklərini meydana çıxarmaqla da şeirin təhlil obyektinə çevirməyi bacarır. Və bu xüsusiyyət, çox az şairlərə məxsus olan xüsusiyyətlərdəndir.

Şair Ənvər Əhməd uzun illər Xankəndində, Qarabağ hadisələri başladıqdan sonra isə Şuşada pedaqoji fəaliyyətlə məşğul olan milli ruhlu qələm əhlidir. Qanlı hadisələr sadədən mürəkkəbə, etirazdan qırğınlara doğru yüksələn dövrdə bütün ictimai, siyasi, hərbi proseslər onun gözləri qarşısında baş vermişdir. Ə.Əhməd Qarabağ mövzusuna çoxsaylı şeirlər və poemalar həsr etmişdir. Onun indiyədək nəşr olunan iyirmidən çox kitabından, ədəbi-bədii irsindən seçib klassik ənənəni bərpa – növbəti Qarabağnaməni tərtib etmək olar. Şairin "Bu qılınc qınında pas ata bilməz" şeirində işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda müqəddəs mübarizəyə alovlu bir çağırış var.

Müasir Azərbaycan poeziyasında Qarabağ mövzulu şeirlərdə bədbin və nikbin notlar bir-birini tamamlayan eyni yolun müxtəlif qütbləridir. Mənfi - müsbət, ağ – qara, əyri – düz, gecə - gündüz kimi təzadlıdır, lirikanın ilham qaynağı tükənməzdir. Hisslərin, duyğuların müqəddəsliyi, Qarabağ sevgisinin gücü, vüsəti, şeirlərin bədii çalar zənginliyi oxcunu heyran edir. Bu dövrün lirikası eyni zamanda məna yükünün sanbalı, dolğunluğu ilə də seçilir.

Beləliklə, əsərlərinə istinad edilən, adlarının sadalanması yığcamlıq nöqteyi-nəzərindən mümkün olmayan yüzlərlə şairin yaradıcılığına əsaslanaraq əminliklə söyləmək olar ki, müharibə poeziyası termin və yaradıcılıq sahəsi olaraq təşəkkül mərhələsini keçməkdədir. Ədəbiyyatda Qarabağ müharibəsi, yurd yerlərinin işğalı mövzusu cəmiyyətdə vətənpərvərlik ovqatının ovxarlanmasına, düşmənə nifrətin aşılanmasına, mübarizə əhval-ruhiyyəsinin yüksəlməsinə xidmət etmiş, azadlıq, müstəqillik uğrunda savaşın müvəffəqiyyətlə sonuclanmasında ideoloji-təbliğat funksiyasını ləyaqətlə və məharətlə yerinə yetirmişdir.

Dissertasiyanın ikinci fəslinin ikinci yarımfəsli **"Şəhidlik mövzusunun formalaşması"** adlanır.

Vətənin bütövlüyü, azadlığı, istiqlalı yolunda barışmaz mübarizə aparan, canını, həyatını fəda edən cəsurlar, igidlər, qəhrəmanlar əslində ölmür, əksinə, ölümsüzlük qazanır, əbədiyyət səltənətinə daxil olur, şəhidlik zirvəsinə yüksəlir.

Qarabağ hadisələri ərəfəsində ilk şəhidlər, ilk qurbanlar verildikdən sonra şəhidlik məfhumu gündəmə gəldi, aktuallıq kəsb etdi, insanları düşündürməyə başladı, anlamağa, statusunu dəyərləndirməyə vadar etdi.

İctimai-siyasi ziddiyyətlərlə dolu cəmiyyətdə yaşayan xalqımız əsrlər boyu öz şərəf və ləyaqətini qorumaq üçün böyük ideallar – azadlıq, milli müstəqillik uğrunda mübarizələr aparmış, ağır çətinliklərlə üzləşsə də sınmamış, əksinə, qəlbində, qanında qaynayan hürriyyət, istiqlal eşqini daha da alovlandırmışdır. Zaman-zaman təkrarlanan milli faciələrlə, soyqırımları ilə üz-üzə qalsa da təbiəti etibarilə mərd, döyüşkən, qorxmaz, güclü xarakterə malik olan cəsur oğullarımız, mərd igidlərimiz hətta düşmənlə qeyri-bərabər vuruşmalarda belə özlərini od-alovun, ölümün ağuşuna atmaqla da mənəvi qələbəni təmin etməyi, qalib gəlməyi bacarıblar. Aşkarlıq, demokratiya şəraitində – dövrün ictimai-siyasi, tarixi hadisələrinin gedişatı çökməkdə olan sovet imperiyasına yeni faciələr törətməyə imkan verdi.

Çağdaş poeziyamızda şəhidlik mövzusu şairlərimizin əsas mövzu obyektlərindən birinə çevrilmişdir. Bu dövrdə şəhidlik mövzusunda yazan şairlərimizdən Məmməd Aslan "Ağla, qərənfil, ağla!", Mirzə İbrahimov "Vətən şəhidlərinə", "İgid şəhidlər", Nəbi Xəzri "Qanlı yanvar", Nəriman Həsənzadə "Burda", "Almaz", Fikrət Qoca "O gecə", Hüseyn Arif "Ülvi", Zəlimxan Yaqub "Altında", "Vətən nə çəkdi", "Yoxdu", "Şəhid Qanı", "20 yanvar günü", "Güllə", Mirvarid Dilbazi "Şəhidlər qəbristanında", "Onun bu torpağı", Fikrət Sadiq "Bircə bu qalmışdı", "Bir il keçdi", Mədinə Gülgün "Bu şəhid balaların ölən çağı deyildi", Hökümə Bülluri "Qaməti əyildi Heydər babanın", Əlibala Hacızadə "Şəhidlər yuxuma girir", Tofiq Mütəllibov "Dözüm dərsi", "Yumruqlar bir olsa", Vidadi Babanlı "Başsağlığı"Əli Vəkil "Şəhid bayatıları", Alı Mustafayev "Qərənfil yağışı", "Şəhidlər", "Ayaq saxla", "Dəli bir ağlamaq keçir könlümdən", Müzəffər Şükür "Habil çalarkən, "Mərsiyə", Məmməd Namaz "Körpə şəhidlərə layla", "Torpağa yazıldı", Ramiz Məmmədzadə "O gecə", Tofiq Qaraqaya "Son damla", Oqtay Rza "Elçin türbəsi", Ələkbər Salahzadə "İz", "Qərənfil nağılı", Çingiz Əlioğlu "And", Abbasağa Azərtürk "Şəhidlər", Xəzəngül "Hara köçür dünya", Rafiq Yusifoğlu "Qərənfilə dəyən güllə", "Qan gölündə", Əbülfəz Naxçıvanlı "Şəhidlər xiyabanı", Musa Ələbkərli "Şəhidlər xiyabanı" və b. şeirlərini dövrü mətbuatda, kitablarda çap etdirərək zamanın nəbzini tutdular, poetik fikir insanların dərdini yüngülləşdirməyə, mübarizə əhval-ruhiyyəsini yüksəltməyə xidmət etdi. Poeziyaya azalan maraq, öləziyən sevgi dirçəlməklə yanaşı insanları da bir-birinə yaxınlaşdırdı, milli birliyin təməlini möhkəmləndirdi.

Xəlil Rza Ulutürkün "Ağı" şeiri oğlu Təbrizin şəhidliyi ilə bağlı qələmə alınsa da, burada şair şəxsi kədəri ilə yanaşı, Azərbaycanın ikiyə parçalanmasının millətin qəlbinə vurduğu yaraları, onun ruhunda, yaddaşında, zehnində yaratdığı ictimai dərd və ağrıları böyük məharətlə əks etdirə

bilmişdir. Bir tale fonunda millətin taleyi, bir şəhid itkisi fonunda isə yüzlərlə şəhid itkisi təsvir və tərənnüm edilmiş, ağrı-acı ilə yüklənən duyğuların bədii ifadəsinə nail olunmuşdur.

Zəlimxan Yaqubun "Layla, Xocalım, layla" şeiri iyirminci yüzilliyin ən böyük faciələrindən biri olan Xocalı şəhərinin yerlə-yeksan edilməsi ilə bağlı şairin daxili-mənəvi yaşantıları fonunda qələmə alınmışdır. Kövrək, emosional üslubda qələmə alınmış bu laylada şairin yaşanan faciənin böyüklüyü, dünyanın Azərbaycanda baş verənlərə biganəliyi, insanın insana qənim kəsilməsi qarşısında sarsıntıları ilə bağlı qənaətləri əks olunmuşdur.

Ələmdar Quluzadənin "Güllələr… Qəbirlər" şeiri də şəhidlik mövzusunda qələmə alınmış bədii nümunələr içərisində baş verənlərə orijinal yanaşma tərzi baxımından yeni və ibrətamizdir.

Vətən torpaqlarının bir hissəsinin düşmənlər tərəfindən qəsb edilməsi Flora Xəlilzadənin şeirlərində də üzüntülü bir dərdlə qabardılır. Müəllif "Anam" şeirində öz nəsil tarixini vərəqləyir. Yurddan didərgin düşən, dağlara, düzlərə həsrət ana bir vaxtlar öz anasının yaşadığı ömrə qayıdır. Dünyaya gəlişini ah-amanlı günlərə düşən ananın dünyadan gedişi də tufanlı günlərə təsadüf edir.

Flora Xəlilzadənin poetik qəhrəmanı öz ömrünə düşən bu tale payını şəxsi həyatından ayırır, vətən dərdinin bir parçası kimi dəyərləndirir. "Didərginəm obamdan, könlüm vətən haraylar", — deyərək didərgin ruhlu bayatılarla həm elinin, vətəninin, xalqının, həm də soyunun, nəslinin, ailəsinin faciəsini ümumiləşdirmiş olur.

Danılmaz faktdır ki, azadlıq, istiqlaliyyət hər bir xalqın ən böyük arzusu və istəyidir. Bütün xalqlar bu arzuya, məqsədə çatmaq üçün qətiyyətlə çarpışır, illərlə, on illərlə, hətta yüz illərlə mübarizə aparmalı olurlar. Qədim və şərəfli tarixə malik Azərbaycan xalqı da öz azadlıq və istiqlaliyyəti uğrunda əsrlərlə mübarizə aparmış, onun naminə minlərlə övladını qurban vermişdir. Azərbaycanı ucaldan, onu şöhrətləndirən də qəhrəman övladları olmuşdur. Bu qəhrəmanlığın tərənnümü, təsviri, təbliği 1991-2005-ci illərdə yaranan poeziya nümunələrində öz əksini geniş şəkildə tapmışdır. Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Qabil, Mirvarid Dilbazi, Sabir Rüstəmxanlı, Hüseyn Kürdoğlu, Nurəngiz Gün, Ənvər Əhməd, Ələmdar Quluzadə və b. şeir və poemalarında şəhidlik, qəhrəmanlıq yüksək səviyyədə təqdir olunur, şəhidlik qəhrəmanlığın ən yüksək zirvəsi, ən ali mərtəbəsi kimi tərənnüm edilir.

Müasir poeziya xalqımızın Qarabağ uğrunda apardığı mübarizənin qələbəsinə inamı tərənnüm etməklə bərabər bu qələbənin yaxın gələcəkdə

əldə ediləcəyinə ümidləri artırır. Şairlərimiz bu məqsədlə tarix boyu başı müsibətlər çəkmiş doğma xalqımızı şanlı mübarizəyə ruhlandıran daha dolğun, daha məzmunlu əsərlər yaratmaq əzmindədir və bu proses uğurla davam etdirilir.

Tədqiqat işinin ikinci fəslinin sonuncu – üçüncü yarımfəsli **"Lirikada humanizm məsələləri"** adı ilə araşdırılmışdır.

Bədii ədəbiyyat, xüsusən də onun poeziya yönü bütün sənət növləri arasında həyatı, gerçəkliyi humanistcəsinə əks etdirən yaradıcılıq sahəsidir. Humanizm əsl, həqiqi poeziyanın hər zaman özülü, bünövrəsi, təməli olmuşdur. Böyük Nizamidən Nəsimiyə, Füzuliyə, M.Muşfiqdən, S.Vurğundan müasir şairlərimizə qədər xalqımızın dahi söz sənətkarları humanist ideyaları, onun ucalığını, aliliyini hər zaman tərənnüm etmişlər. Hətta Azərbaycan ədəbiyyatı tarixində Nəsimi kimi öz əsərlərində insanın aliliyini, ucalığını, müqəddəsliyini Allah səviyyəsinə qaldırıb vəsf edən şairin mövcudluğu böyük əhəmiyyət daşıyan ədəbi hadisədir. S.Vurğun «Qalib gəlcəkdir cahanda kamal» - deyərək insan zəkasının, təfəkkürünün üstün, ali məqam olduğunu yüksək dəyərləndirmişdir.

Qarabağ mövzulu lirik əsərlərdə humanizm ideyaları Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub, Söhrab Tahir, Sabir Rüstəmxanlı, Məmməd İsmayıl, Musa Ələkbərli, Nüsrət Kəsəmənli, Ələmdar Quluzadə, Vaqif Aslan kimi şairlərin yaradıcılığından qırmızı xətt kimi keçir. Nəriman Həsənzadənin 1991-ci ildə çap olunan «Bütün millətlərə» kitabı Qarabağ mövzulu əsərlər içərisində humanizm ideyalarının təbliği baxımından ən dolğun, sanballı sənət əsəri hesab oluna bilər. Akademik Nizami Cəfərov çox haqlı olaraq qeyd edir: «Nəriman Həsənzadə "Azərbaycan harayını" "bütün millətlərə" çatdıran şairlər arasında ən böyük diplomat, diplomatlar arasında ən böyük şairdir»[1].

Şair beşikdə – qundaqda güllələnən, vəhşicəsinə öldürülən altı aylıq bir çağanın məhv edilməsi ilə barışa bilmir. Dünya ictimaiyyətinin diqqətini ölkəmizdə törədilmiş analoqu olmayan faciələrə yönəldir. Ümumiyyətlə, N.Həsənzadə bütün yaradılıcığı boyu öz səmimiyyətini, insanpərvərliyini və humanizmini qoruyub saxlaya bilən sənətkarlardandır. Onun Qarabağ mövzusunda yazdığı poetik örnəklərdə oxucunu düşündürən başlıca məsələ insan, onun taleyi, arzu və istəkləri, ağrı-acıları, əzablarıdır. "Elə durm", "Şəhidlər xiyabanı", "Qanlı kitab", "Ekran önündə", "Xəlilin göz yaşı", "Təzə", "xalq gəlir"şeirləri, "Xarı bülbül", "Qarabağdan gələn var" poemaları ilə şair əslində müharibə, qan və ölüm əleyhinə çıxır və insana,

---

[1] Həsənzadə Nəriman. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004, 336 s.

konkret fərdə, şəxsiyyətə münasibəti, sevgini, məhəbbəti önə çəkir.

Poeziya digər ədəbi növlərlə müqayisədə oxucunu daha tez duyğulandıra, düşündürə, həssaslığını ovxarlaya bilir, ona nəcib sifətlər və humanist keyfiyyətlər aşılayır. Bu baxımdan, Məmməd Arazın 1992-ci ildə yazdığı əsərləri humanist duyğuların incəliyi, təsirliliyi, obrazlılığı ilə seçilir. Qarabağ mövzulu əsərləri içərisində şairin "Dilənçi qaçqın"şeiri olduqca təsirlidir. Şeirdə humanist duyğularla yanaşı milli qürur, milli heysiyyət məsələləri qabarıq şəkildə təhlilə çəkilir. Şair körpə, qaçqın dilənçi uşağa qarnı ac olduğuna görə deyil, qürurunu, mənlik və heysiyyatını kiçik yaşlarından itirdiyinə görə acıyır. Şair bəlkə də həmin uşağın o anda acından bayılmasını başa düşərdi, amma "qaçqınam", - deyə əl açıb dilənməsini yox! Bu şeirdə vətəndaş şairi narahat edən: «Bizim balalarımız bu gün dilənirsə, bəs ordumuzda gələcəkdə kim döyüşəcək?» kimi ibrətamiz, ritorik bir sualdır. Şeirdə acı həyat həqiqətləri emosional hiss və duyğularla təsvir olunmuşdur.

Zəngin ədəbiyyatımızın humanizm ənənələrinə əsaslanan Xəlil Rza Ulutürk "Gerbimiz-qəlbimiz" şeirində yer kürəsinə sülh, əmin-amanlıq arzulayır. Şair bütün yer üzünü güllü-çiçəkli gülzar kimi görmək istəyir: "Dedik: bu Yer Kürəsində nə qan, nə bir məzar olsun, /Məzarlara gül qoymayaq, cahan özü gülzar olsun!" – misraları ilə dünyaya, insanlığa sarsılmaz, əbədi sevgisini dilə gətirib gur səsi ilə bəyan edirdi.

Xalq şairi Qabil Qarabağ mövzusunda yazdığı əsərlərində erməni faşistlərinin insanlığa, humanizmə qənim kəsilməsinə heyrət edir. Bunu zorakılığa əsaslanan erməni əxlaqı ilə əlaqələndirir və bu əxlaqa öz kəskin etirazını bildirir. Onun fikrincə, Allah-təalanın verdiyi ömrü insan xoşbəxt yaşamalıdır, həyatın sevincini, zövqünü ömrünün sonunadək duymalı, yaşamalıdır. İnsan həyatını yarımçıq qoymaq bəşəri dəyərlərə sığmayan ən böyük ədalətsizlikdir, cinayətdir. Şair "Ümid sənədir ancaq…" şeirində "Sülhə qurban kəsməyi" vəd etsə də, bu fədakarlığı, vətənin, ölkəsinin müharibədən qurtuluş əzmini ilk növbədə quru kağız üzərində imzalanan bəyanatlardan, qanunlardan deyil, xalqın igid, cəsur oğullarından umur.

Nüsrət Kəsəmənlinin Qarabağ mövzusunda yazdğı "Cıdır düzü", "İsa bulağı" və digər əsərlərində də ermənilərin antihumanist, vəhşi, qəddar hərəkətləri ustalıqla açılır və tənqid edilir. O, Azərbaycan insanının humanist hisslərini, duyğularını səmimiyyətlə poetikləşdirən istedadlı şairlərimizdən biridir.

Qarabağ müharibəsinin insan taleyində əks olunan sızıltısını, göynəyini yaradıcılığında həssaslıqla, duyğusallıqla əks etdirən istedadlı şairələrimizdən biri də Nurəngiz Gündür.

O “Ağ Qanadlar”, “Günəşə dua”, “Tanrı bəşər övladıdır”, “Yol gedirəm”, “Xocalı simfoniyası” kimi şeirlər kitabı ilə ədəbiyyatda iz qoyan poeziya örnəkləri yaratmışdır. Müəllifin şeirləri dünya dillərinə tərcümə olunmuş, Türkiyə mətbuatında yayınlanmışdır. Xususilə Qarabağ savaşı şairənin yaradıcılığından qırmızı bir xətlə kecmişdir. “Kərəm ol sən, o gözəlin Allahı”, “Xocalı simfonyası” əsərləri özünəməxsusluğu, fikrin bənzərsiz ifadə tərzi ilə 90-cı illər poeziyasına kövrəklik, zəriflik, duyğusallıq gətirmişdir.

N.Günün “Xocalı simfonyası” - zamanın həyəcan simfoniyası, tarixin poetik abidəsidir. Erməni qəddarlığını, vəhşiliyini, qaniçənliyini, rəhmsizliyini, nanəcibliyini, hiyləgərliyini, xəyanətini, cinayətini... heç vaxt unudulmağa qoymayacaq yaddaş zəngidir!

Humanist ideyalar Hüseyn Kürdoğlunun əsərlərində öz səmimi ifadəsini tapır. Şair ürəyini millətin, xalqın, yüksək zəkaya malik bəşər övladının yolunda əsirgəmir. H.Kürdoğlunun şeirlərində humanist duyğular insan ömrünün şərafət zirvəsi kimi mənalandırılır. O Vətənə sədaqət hisslərinin o qədər müqəddəsləşdirir, poetik məzmunda real boyalarla canlandırmağa nail olur ki, Vətən onun əqidəli sahibi olmaq istəyən insanın nəzərində ilahi ibadətgaha çevrilir, vətəndaş adı mötəbərləşir, onun uğrunda həlak olan övladının adı və ünvanı əbədiləşir.

Çağdaş poeziyamızda Qarabağ müharibəsinin başa çatmadığı bir zamanda şairlərimiz xalqımızın sülh, səadət arzularını, həyat eşqini məhv edən erməni terrorizmini bəşər üçün nə qədər təhlükəli olduğunu poetik baxımdan işıqlandırmaqda davam edir, Qarabağ torpaqlarının sülh yolu ilə azad olunmasını, insanların humanist, sivil bir cəmiyyətdə yaşamalarını arzulayan əsərləri ilə doğma xalqımızı haqq işi uğrunda mübarizəyə, qələbəyə səsləyirlər.

Dissertasiyanın üçüncü fəsli **“Epik poemalarda Qarabağ problemləri”** adlanır və həmin fəslin birinci yarımfəsli isə **“Tarixi hadisə və epik janr”** sərlövhəsi altında tədqiq edilmişdir.

Lirik şeirə nisbətən epik poeziya baş verən hadisələrə çevik, operativ münasibət göstərməkdə tələsmir, düşünüb-daşınmağa, ləngərliyə daha çox meyillidir. Çünki epik növ həcm etibarilə lirik şeirdən geniş və süjetli olur. Burada şair tərəfindən yaradılan obrazın müasirliyini, həyat hadisələrini, insan xarakterlərini oxucunun nəzərinə çatdırmaq, onun vasitəsilə ətraf mühiti, tarixi hadisəni dərk etmək vacib hesab olunur. Hadisələrdən bir qədər sonra ədəbiyyatımızda Qarabağ problemlərini əks etdirən maraqlı, ədəbi-bədii zövqün məhsulu olan poemalar nəşr olundu. Qarabağ problemi epik poemaların əsas mövzularından birinə çevrildi.

Araşdırmalar göstərir ki, Qarabağ probleminin elə bir istiqaməti yoxdur ki, epik poemalarda o öz əksini tapmasın. Xalqımızın üzləşdiyi faciələr – şəhidlik, qaçqınlıq, məcburi köçkünlük, didərginlik, yurd həsrəti, şəhər və kəndlərimizin xarabazara çevrilməsi, tarixi-mədəniyyət abidələrimizin yerlə-yeksan edilməsi, əcdadlarımızın, dədə-babalarımızın uyuduqları məzarlıqların alt-üst edilməsi, bir sözlə, Qarabağ müharibəsinin gətirdiyi fəlakətlər, torpaqlarımızın düşmən tapdağında qalması müasir ədəbiyyatımızda yaranan epik poemaların mahiyyətini, aparıcı mövzusunu təşkil edir. Poeziyada poema janrının, xüsusilə onun epik formasının müasir dövrümüzdə daha da inkişaf etdirilməsi Qarabağ problemlərinin çözülməsinə, bu problemləri yaradan səbəblərin açılmasına böyük köməklik göstərmişdir. Müasir poeziyamızda Qarabağ gerçəkliyinin epik təsvirinin şairlər tərəfindən hərtərəfli təcəssüm etdirilməsini böyük və ciddi addım kimi qiymətləndirməliyik.

Epik poemalarda Qarabağ problemlərini səciyyələndirən şairlərimizdən Bəxtiyar Vahabzadə ilə yanaşı Zəlimxan Yaqub, Xəlil Rza Ulutürk, Nüsrət Kəsəmənli, Nəriman Həsənzadə, Ələmdar Quluzadə, Əli Mahmud və b. şairlərin əsərləri problemə obyektiv baxış nöqteyi-nəzərindən əhəmiyyətli və aktualdır.

Dünyaya sözün gözü ilə baxan Zəlimxan Yaqubun «Bir əli torpaqda, bir əli haqda» şeirlər toplusuna şarin 7 poeması daxil edilmişdir. Bu poemalardan altısı – "Zəlimxan qarğışı", "Rəsul Həmzətova məktub", "Allahım, mənə bir ağsaqqal yetir", "Azərbaycan oxusun", "Ey vətən oğulları", "Sizi qınamıram" epik poemaları Qarabağ mövzusundadır. Qoşmalar, təcnislər, lirik şeirlər yazan Zəlimxanı zaman birdən-birə odun-alovun içinə atdı: "Sizi qınamıram", "Şair harayı", "Ey vətən oğulları!", "Dur ayağa məmləkətim", "Bu gecə yuxuma girmişdi Şuşa" kimi əsərlər şair qəlbinin iniltisindən, zamanın diqtəsindən yarandı.

Müasir Azərbaycan poeziyasında Qarabağ mövzusunda yazılan əsərlərdən biri də Ələmdar Quluzadənin "Qarabağ oyunu" poemasıdır. Müəllifin bu poemasında epik səpkidə tarixi hadisələrə qayıdış güclüdür. Əsərdə hadisələrin epik təsviri real və həyatidir.

Ümumiyyətlə, Ə.Quluzadənin epik səpkidə qələmə aldığı "Qarabağ oyunu" poeması syasi oyunların kölgəli məqamlarına işıq salmaqla yanaşı, yüz minlərlə insanın ciddi problemlərinin qeyri-müəyyən durumunu, həlli istiqamətini nişan verir, əks etdirir. Şair Qarabağ dərdinin əlacını özümüzdə axtarır. Hər bir azərbaycanlı üçün "Azərbaycan himni" - Qarabağ harayı olmalıdır - deyən şair konkret problemdən çıxış edib tarixi hadisələri dərin bir poetik həyəcan və ehtirasla önə çəkərək xalqımızı mübarizəyə qələbəyə səsləyir.

Elmi işin üçüncü fəslinin ikinci yarımfəsli **“Sosial ziddiyyətlərin bədii təcəssümü”** adlanır.

Ədəbiyyat, söz sənəti cəmiyyətində baş verən siyasi-ictimai, sosial olayların, mühüm tarixi proseslərin bədii mənzərəsidir. Bütün təbii hisslər, duyğular, əhval-ruhiyyələr keçicidir, dəyişəndir. Lakin onlar sənət əsərinə, poetik mətnə, estetik fakta çevriləndə yaşarılıq, ölməzlik qazanır, cəmiyyətin, xalqın, millətin tarixi onun qan yaddaşı olur. Həm də, bu tarix daha təbii, daha səmimi təsir bağışlayır. Zamanın bütün mənfi və müsbət tərəfləri, əlamətdar hadisələr, baş verən haqsızlıqlar, ədalətsizliklər, ictimai və sosial ziddiyyətlər həmin dövrdə yaranan əsərlərin, əsasən də poetik nümunələrin məzmununda öz əksini tapır.

Təbii ki, bunlar ədəbiyyatımızın mövzu-problem arsenalından kənarda qala bilməzdi. Elə 1990-cı illərin əvvəllərindən etibarən cəmiyyətdəki sosial ziddiyyətləri əks etdirən əsərlər meydana gəlməyə başladı. Ziddiyyətlərin hələ dərinləşmədiyi bir vaxtda poeziyamızda bu problemləri əks etdirən kiçik həcmli şeirlər yaranmağa başlamışdı. Famil Mehdi 1994-cü ildə “Dilən, professor utanma, dilən” və bu qəbildən olan neçə-neçə şeirlərini qələmə almaqla cəmiyyətdə mövcud olan sosial ziddiyyətlərin şah damarını, nəbzini tutmağa və mətnə gətirməyə çalışırdı:

“Millət can üstədir, qardaşlar, qalxın!”
Nəyinə gərəkdi kimin səsidir?
Arxasız millətin, yiyəsiz xalqın
Alimi, şairi dilənəsidir[1].

Yaxud, Nəriman Həsənzadənin “Durnalar vurulur qaqqıldaşanda”, Musa Ələkbərlinin “Hara qaçırsan, ay dana?”, “Məni tanıyanlar, unudun məni”, “Şairi ac saxla, a qoca dünya”, “Sən sərvət içində, mənsə qəm-kədər”, və s. şeirləri kimi nümunlər xarakterikdir. Bu şeirlərdə dövrün, zamanın insana verdiyi “dəyər”, bu dəyərin müəyyənləşməsində olan meyarsızlıq, neqativ təsirlər öz əksini tapırdı.

1990-cı illər poeziyasında Qarabağ mövzulu epik poemalar içərisində sosial ziddiyyətləri qabarıq və dolğun şəkildə əks etdirəni əsərlərdən N.Həsənzadənin “Qarabağdan gələn var”və Z.Yaqubun “Zəlimxan qarğışı” poemalarını vurğulamaq olar. N.Həsənzadə 1997-ci ildə qələmə aldığı bu irihəcmli epik-lirik əsərində xalqımızın üzləşdiyi problemləri, ədalətsizlikləri Qarabağın Tuğ kəndindən olan Məmməd müəllim və Səyyarə xanımın şəxsində, onların acınacaqlı taleyində ümumiləşdirir. “Qarabağdan gələn var” poeması başdan-başa cəmiyyətimizdə baş verən sosial ziddiyyətlərin bədii

[1] Mehdi Famil. Dilən, professor, utanma, dilən... Bakı:Azərnəşr, 2002, 464 s.

əksi, ensiklopedik toplusudur.

Xalq şairi Zəlimxan Yaqubun **“**Zəlimxan qarğışı” poeması da xüsusi poetik sanbala malikdir. Şair bu əsərində düşməndən daha çox “sapı özümüzdən olan baltaları” qamçılayır. Şairin ürəyini Qarabağ uğrunda son damla qanımıza qədər vuruşmamağımız göynədir. Qaçqınlığın, məcburi köçkünlüyün gətirdiyi sosial bəlalar və bu ağır vəziyyətdən istifadə edib öz şəxsi büdcələrini, biznesini quranlar, korrupsiyaya qurşananlar şairin nifrət hədəfləridir.

Rafiq Odayın “Qarabağ şikəstəsi” poeması xalqımızın yaşadığı fəci reallıqlara analitik baxışları gücləndirmək, milli düşüncə və ruhu zamanın gerçəkliklərinə yönəltməyə qida verən əsərlərdəndir. Bu əsər müharibə səhnələrini canlandırmasa da, ona müharibə psixologiyasının hakim kəsildiyi danılmazdır. Bu səbəbdən Qarabağ problemi ilə bağlı üzləşdiyimiz çətinliklər, ürcah olduğumuz bəlalar real bədii əksini tapmış, vətəndaşlıq qayəsi ilə işıqlandırılmışdır.

Elmi işin üçüncü fəslinin üçüncü yarımfəsli **“Qəhrəman döyüşçü obrazı”** adlanır.

Müasir Azərbaycan poeziyası Qarabağ müharibəsində böyük qəhrəmanlıq, igidlik göstərmiş övladlarımızın bədii obrazını yaratmağa çalışmışdır. Ümumiyyətlə, qəhrəman kimdir, o necə olmalıdır, - sualı ədəbiyyatımızı hər zaman düşündürmüşdür. Bu xüsusda professor Yəhya Seyidovun “Qəhrəman və həyat” məqaləsində gəldiyi qənaətlər maraqlıdır: “Zəhmətkeşlər, namuslu adamlar üçün qəhrəman o adamdır ki, həlledici anda cəmiyyətin mənafeyinin tələb etdiyi kimi hərəkət etsin, lazım gələndə öz şəxsi rahatlığını və faydasını xalqın mənafeyi naminə qurban verməyi bacarsın; hər cür məhdud eqoizmə, xırda hisslərə nifrət edərək səadətini xalqın xoşbəxtliyində görsün. Bu mübariz qəhrəmanlar, əsasən, mübarizənin ön xəttində, qüvvələrin və hisslərin gərginliyi tələb edilən anlarda özlərini daha aydın göstərirlər”[1].

Bu mənəvi keyfiyyətlər Qarabağ mövzusunda yazılmış poemalardakı qəhrəman döyüşçü obrazlarının səciyyəvi xarakteri, müsbət xüsusiyyətləri sayılır desək, yəqin ki, yanılmarıq. Şairlərimiz bu qəhrəmanların ən nəcib mənəvi keyfiyyətlərini tərənnüm etmiş, onların keçdikləri döyüş yolunu yüksək qiymətləndirmişlər.

Ələmdar Quluzadə qələmə aldığı sosial-psixoloji poeziya örnəkləri ilə yanaşı, vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm edən epik əsərləri də bu

[1] Seyidov Yəhya. Qəhrəman və həyat // Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: Az. EA, 1964, s. 24-39.

günümüz və sabahımız üçün qiymətlidir. Tədqiqatçılar çox haqlı olaraq şairin 2006-cı ildə işıq üzü görən "Qadan mənə, Qarabağ" kitabına daxil etdiyi silsilə poemalarını – "Qarabağ oyunu", "Şəhid şəhər", «Şəhid bacısı", "Alay komandiri","İlmələrin dastanı" əsərlərini "Müasir dövrün Qarabağnamələri" adlandırırlar.

Cəsarətlə deyə bilərik ki, müasir poeziyamızda qəhrəman döyüşçü obrazının ilk layiqli yaradıcılarından biri Ələmdar Quluzadədir.

Şairin "Alay komandiri" əsəri poeziyamızda qəhrəman döyüşçü obrazının uğurlu təsvirinə nail olan bədii nümunə kimi çox dəyərlidir. Müəllif 1998-1999-cu illərdə qələmə aldığı iri həcmli bu epik poemasını Azərbaycanın Milli Qəhrəmanı, polkovnik-leytenant Şirin Mirzəyevin və vətən uğrunda döyüşlərdə şəhid olan igid və cəsur oğullarımızın əziz, unudulmaz xatirəsinə həsr edib.

Ələmdar Quluzadə poemada öz qəhrəmanının xarakterini bütün incəliklərinə qədər açmağa çalışır və nəticədə onun kamil obrazını yaratmağa nail olur. Müəllif qəhrəmanının keçirdiyi hiss və duyğuları, girdabına qərq olduğu narahat, gərgin düşüncələri, yaşadığı psixoloji həyəcanları ustalıqla təsvir edir. Şair qəhrəman döyüşçü Şirinlə, humanist, ailəsini və övladlarını sevən Şirinin xarakterini birləşdirir.

Tədqiqatın üçüncü fəslinin dördüncü yarımfəslində **"Düşmən obrazı"** mövzusu araşdırılmışdır.

Tarixin hər bir dönəmində olduğu kimi, ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərindən başlayaraq, günümüzə qədər yaranan epik və lirik poeziya nümunələri həmin dövrdə baş verən hadisələri, xalqımızın başına gətirilən müsibətləri poetik şəkildə, obrazlar vasitəsilə özündə əks etdirir. Qarabağ müharibəsi, ərazilərimizin işğalı, bir milyondan çox günahsız soydaşlarımızın öz dədə-baba yurdlarından zorla didərgin salınması təbii ki, söz sənətkarlarımızın diqqətində həmişə prioritet mövzu sayılıb. Müasir Azərbaycan poeziyasında elə bir şair tapmaq çətindir ki, öz əsərlərində düşmən – erməni obrazı yaratmamış olsun. Bəxtiyar Vahabzadə, Məmməd Araz, Nəriman Həsənzadə, Söhrab Tahir, Nəbi Xəzri, Zəlimxan Yaqub, İlyas Tapdıq, Cabir Novruz, Hüseyn Kürdoğlu, Məmməd İsmayıl, Məmməd Aslan, Famil Mehdi, Ələmdar Quluzadə və b. şairlərimizin yaradıcılığında tarixi vətəni məlum olmayan erəməni - düşmən obrazı yaradılır, erməni barbarlığını, erməni vandalizmini, erməni vəhşiliyini obrazlı ifadə vasitələrilə oxucuların yaddaşına həkk etməyi bacarmışdılar. Şair Hüseyn Kürdoğlu düşmən obrazını yaradarkən uzun-uzadı təsvirə ehtiyac görmür, müxtəsər və təsirli bir üsul seçir. Şairə düşmənin obrazını yaratmaq, onun xarakterik cizgisini cızmaq üçün bircə uğurlu təşbeh vasitəsi yardımçı

olur:

Daşnak gözləri kimi
Həmişə kinli dünya[1].

Şair Xəlil Rza Uluturkün poeziyasında düşmən obrazı daha sərt, daha radikal boyalarla təsvir olunmuşdur. Buna səbəb düşmənin törətdikləri vəhşiliklərin çeşidinin, qəddarlığının ölçüyəgəlməz sayının şairin şeirlərində sərgilənməsidir. Düşmən qocaya, qadına, körpə uşağa belə məhəl qoymur. Əsir aldığı soydaşlarımıza qarşı tarixdə görünməmiş vəhşiliklər, qəddarlıqlar, işgəncələr nümayiş etdirir. İnsanların diri-diri dərisini soyur, bədən üzvlərini kəsir, gözlərini çıxarır. Azyaşlı qız uşaqlarının namusuna təcavüz edir. Xəlil Rza Ulutürk xalqına bu dəhşətli, tükürpədici vəhşilikləri unutmamağı tövsiyyə edir.

Xocalı soyqırımı dünya tarixində bənzəri olmayan, erməni təfəkkürünün, erməni əxlaqının bariz təzahürü, nadir nümunəsi, vəhşiliyin və barbarlığın orijinal variantıdır. Belə fantaziya ilə erməni terrorizmi mənəvi sələfləri olan neofaşizmə dərs demək, qəddarlığın patriarxı titulunu qazanmaq səviyyəsindədir. Xocalı soyqırımına üsyan edən Xəlil Rza Ulutürk "Qaytar mənim qüdrətimi, Azərbaycan!" poemasında düşməni rəhmsiz cəllad adlandırır.

Müasir epik-lirik əsərlər içərisində yaradılan düşmən obrazına görə xalq şairi Zəlimxan Yaqubun "O qızın göz yaşları" poeması da xüsusi bədii-estetik dəyərə və dolğun məzmuna malikdir.

Xocalı faciəsinin dəhşətlərinə, ağrılarına həsr etdiyi bu poemada Z.Yaqub dərdin portretini yaradır, düşmənə qəzəb, nifrət hissi aşılayır.

Əsər boyu ermənilərin Xocalıda törətdikləri cəllad əməlləri, məkrli istəkləri oxucuya çatdırılır. Müəllif "Qarabağ tarixi açılsa qat-qat, Tarixə sığmayan kədər görərsən" - deyə, dünyaya, beynəlxalq təşkilatlara erməni vandalizminin dəhşətlərini çatdırır.

Zəlimxan Yaqubun "O qızın göz yaşları" poeması yaşından, dinindən və milliyyətindən asılı olmayaraq insanlığı dəyərləndirməyi bacaran, haqqı, ədaləti sevən vicdanlı olan hər kəsi bəşəriyyətə qarşı qatı cinayətlər törədən təhlükəli düşmənə - erməni neofaşizminə qarşı səfərbərliyə səsləyir.

Dissertasiyanın dördüncü fəsli **"Qarabağ mövzusunda yazılan əsərlərin sənətkarliq xüsusiyyətləri"** başlığı altında araşdırılmışdır. Bu fəslin ilk yarımfəsli isə **"Dil və üslub məsələləri"**ndən bəhs edir.

Bədii mətnin dil və üslub xüsusiyyətlərini bədii təsvir vasitələrindən,

[1] Kürdoğlu Hüseyn. Yurduma qurbandır sözüm. Bakı: Sabah, 2005, 508 s.

məcazlardan kənarda təsəvvür etmək mümkünsüzdür. Üslub - dil, ifadə vasitələrindən yaradıcı, məqsədyönlü istifadə üsulu, faydalanmaq metodudur. Üslublar mahiyyət etibarilə ictimai və fərdi, ümumi və xüsusi üslublara ayrılır. İctimai təfəkkürün təzahür forması kimi özünü büruzə verən ümumi üslublar funksional üslub missiyasını daşıyır. Azərbaycan ədəbi dilinin əsasını funksional üslublar təşkil edir. Xüsusi, fərdi üslublar isə böyük, istedadlı sənətkarların yaradıcılığına xas poetik keyfiyyətdir.

İctimai və fərdi üslubların görkəmli tədqiqatçısı, akademik Tofiq Hacıyev yazır: "…Dil bilavasitə fikir gerçəkliyidir, fikrin təzahürüdür. Hamıda fikir, psixologiya eyni ola bilmədiyi kimi, onun ifadə tərzi də müxtəlif olmalıdır. Lakin ifadə tərzinin müxtəlifliyi hər yerdə yazıçının üslubu ilə idarə olunur, yazıçının üslubundan asılı olaraq bu müxtəliflik az və ya çox fərqlənə bilər"[1].

Qarabağ mövzusunda yazılan əsərlərin dil və üslub xüsusiyyətləri üzərində aparılan araşdırmalar göstərir ki, şairlərimiz bədii dilin siqlətindən, çoxqatlı çalarlarından, fikrin obrazlı ifadə tərzindən qədərincə istifadə etməyə, faydalanmağa çalışmışlar. Az sözlə dərin məna, böyük fikir ifadə etmək, sözü şəkilləndirmək, obrazlılığın fonetik, leksik və qramatik özünəməxsusluğundan barınmaq sənətkarlarımızın əsas yaradıcılıq xüsusiyyətlərindən hesab olunmalıdır.

Şair-pulisist M.Aslan həmkarı Hüseyn Kürdoğlunun Qarabağ mövzusunda yazdığı "Ağdama" şeirinin dil-üslub xüsusiyyətlərindən bəhs edərək yazır: "Şair sözdən yapışa-yapışa, sözün çoxmənalılığından at səyirdərək vətəndaş qayəli dördlüyü hər halda Sarı Aşığın xəyalı ilə qanadlandığından, onun gülzarında sözün bu yönlü bilməcə dünyasına düşüb-çıxdığından və ondan böyük səriştə ilə bəhrələndiyindən yarada bilir»[2].

H.Kürdoğlu "Ağdama" şeirində bədii sözün ecazkar gücü ilə "Ağdam"kəlməsinin doğurduğu assosiativ duyğuların, didaktik hisslərin təravətlənməsilə yanaşı, cinasın yaratdığı sərt kontrastın mülayim, preventiv xəbərdarlığına diqqət çəkir. Şair yaşadığı hissləri sənətkarlıqla ifadə etmiş və "şeirimin əynində öz donumuz var"— deməklə ulu söz ustadlarının mənəvi varisi olduğunu bir daha təsdiqləmişdir.

Ana dilindən ustalıqla istifadə edən, onun saflığı, təmizliyi uğrunda mübarizə aparan şairlərdən biri də böyük söz ustadı Xəlil Rza Ulutürkdür. Şair şeirlərində bədii ifadə vasitələrinin vasitəsilə emosionallığı artırır, təsvir

---

[1] Hacıyev Tofiq. Yazıçı dili və ideya-bədii təhlil. Bakı: Maarif, 1979, 132 s.
[2] Aslan Məmməd. Qaya çiçəklərindən biri. "Ekran-Efir" qəzeti, Bakı, 2004, 12 iyun

və tərənnüm etdiyi hadisələri oxuculara daha qabarıq şəkildə çatdırmağı peşəkarlıqla bacarır. Vətənpərvər şairin «Şuşam» şeirində ana dilimizin zəngin söz materiallarından istifadə yerli-yerindədir. Misralar poetik çərçivələrə baş əymir, okean dalğaları kimi enib qalxır. Şair Şuşa yanğısını, Şuşa həsrətini müsəlmanın Kərbəlaya, sevən bir şəxsin öz eşqinə can atması ilə müqayisə edir. "Göylərin ovcunda yaşayan Şuşam" ifadəsi tamamilə yenidir və orijinal metaforadır. "Pənah xanın qılıncı"na, "İbrahim xanın tacı"na bənzədilən, tarixi keçmişə söykənən Şuşanın qayğıya möhtaclığı şairin diqqətə çatdırmaq istədiyi başlıca qayədir.

Güclü pafos, məğrur çağırış, nida və xitablarla süslənmiş bədii müraciət forması Məmməd Araz poeziyasının fərdi üslubi keyfiyyətlərin məcmusuna daxildir.

Misralarda daxili enerjiyə güvənən, söykənən bədii xitablar, müraciətlər fikrin oxucu diqqətinə çatdırılmasında peyk funksiyasını yerinə yetirir. Məmməd Araz poeziyasındakı konkretlik, dəqiqlik, qətilik, ultimativ və eyni zamanda haqlı sərtlik qəlb yanğısından güc alan üslubi ifadə tərzinin məcmusudur.

Gərəkli, diri sözləri tapıb işlətmək, sözə təzə ruh, nəfəs vermək, onu bədii sözün estetik gücü ilə cilalamaq Famil Mehdinin Qarabağ mövzusunda yazdığı lirik və epik əsərlərində müstəsna önəm kəsb etmir. Şairin əsərlərinin dili pafoslu, koloritli ifadələrlə zəngindir. Bu ifadələr vasitəsilə şair üzünü yurdun igid, cəsur övladlarına tutaraq
vətənimizin suverenliyini, millətimizin təhlükəsizliyini qorumaq naminə zamandan xeyir-dua almaq, onun dərslərindən ibrət götürmək üçün tələsməyə çağırır.

Sözün misra daxilindəki yerinin düz seçilməsi ilə fikir canlanır, öz-özündən nurlanır, söz sözlükdən çıxıb şairin ürəyinin və ovqatının şəklinə çevrilir. Bu cəhətdən şair Zəlimxan Yaqubun lirik və epik poemaları dilinin zənginliyi baxımından çox maraqlıdır. Z.Yaqubun əsərlərində mövzunun təbiəti ilə sözün məna çalarları düz mütənasibdir. Onun Qarabağ mövzusunda yazdığı şeir və poemalarında da fonetik, leksik, frazeoloji, qrammatik və üslubi vasitələr, məcaz sistemi, bədiilik və ifadəlilik vasitələri onun poeziya dilini şərtləndirir. Sözlərin çoxmənalılığı, antonim qarşılaşdırmalar, fikrin sinonim cərgələri, ononimlər vasitəsilə yaradılmış cinas qafiyələr, ümumişlək leksikanın böyük üstünlüyü, poetik sözlər, ümumxalq dilinin leksikasının zəngin emosionallıq imkanları, epitetlər, müqayisələr, metaforalar, mübaliğələr, şeirə xalq ifadə tərzinin ruhunu gətirən frazeoloji vahidlər, atalar sözləri, hikmətli sözlər, məsəllər, həzin intonasiya, poetik ritm, poetik pafos, düzgün ölçülər, ahəngdarlıq, müharibə motivlərinin şeir-

lərdə təbii, inandırıcı verilməsi Zəlimxan Yaqub poeziyasının millilik keyfiyyətlərini, dil xüsusiyyətlərini şərtləndirən mühüm amillər, vasitələrdir.

Qrabağ mövzusunda yazılan əsərlərin dil və üslub xüsusiyyətlərinin üfüqlərinin genişləndirilməsində, yaradıcılıq imkanlarının dərinləşməsində və zənginləşməsində nə qədər uğurlar qazanılsa, bunlarla kifayətlənmək olmaz. Hesab edirik ki, əldə edilən uğurlar bütövlükdə poeziyanın, milli ədəbiyyatın inkişafına təkan verməli, vətənpərvərlik hissinin yüksəlişinə, milli şüurun oyanışına xidmət göstərməlidir. Azərbaycan şeir dilinin zəngin qaynaqları, ənənələri, geniş imkanları və spesifik xüsusiyyətləri vardır. Şairlərimiz poeziyanın mövzu rəngarəngliyinə, fikrin ifadəliliyinə, obrazlılığına və bədii dilin polifonik çalarlarına ciddi diqqət yetirməlidirlər.

Dissertasiyanın dördüncü fəslinin ikinci yarımfəsli **“Məcazlar sistemi - örtülü həqiqətlər”** adlanır.

Müasir dövrdə Qarabağ mövzusunda yazılan əsərlərin poetik imkanları, dil və sənətkarlıq xüsusiyyətləri, ideya-estetik keyfiyyətləri göstərir ki, belə bir poeziyanın dünyaya gəlməsi üçün parlaq obrazlar yaradan, bəşəri duyğu və düşüncələri qələmə alan böyük şairlərimiz Qarabağ müharibəsinin gedişatını, ictimai-siyasi olayları diqqətlə və eyni zamanda həyati müşahidə qabiliyyəti əsasında öyrənməli olmuşlar. Qarabağ mövzusunda işləyən hər bir şairimiz ədəbi dilə fərqli aspektdən yanaşmış, hərə öz ilhamına, istedadına uyğun olaraq dilin daxili potensialından, yaradıcılıq qüdrətindən yetərincə faydalanmış, sözü, kəlməni zərgər dəqiqliyi ilə cilalamış, yeni nəslin ədəbi zövqünə, tələbatına cavab verən sənət əsərləri yaratmışlar. Klassik ənənələrə, çağdaş ədəbi meyarlara sadiq qalan görkəmli sənətkarlarımız Qarabağ mövzusunda yazdıqları əsərlərində müharibə abi-havasının leksikasını cəsarətlə poeziyaya gətirmiş, şeir dilini daha da zənginləşdirmişlər.

Ədəbiyyatın əsas materialı, predmeti sözdür. İstər yazıçı, istərsə də şair bədii əsərdə oxucuya təqdim etdiyi həyat hadisələrini, obrazları sözün gücü ilə fərdiləşdirir. Hadisələrin, surətlərin nə dərəcədə uğurlu alınması şübhəsiz ki, söz ustasının sənətkarlıq bacarığından asılıdır. Sənətkar bütövlükdə bədii fikrin gücü ilə xalqın fədakarlığını, gənclərimizin rəşadət və qəhrəmanlığını, onun düşmənə sonsuz nifrətini və yurd uğrunda mübarizə əzmini müşahidə və əks etdirməli, adi bir müharibə səhnəsini, səciyyəvi həyat hadisəsini dərindən öyrənməli və qələmə almalıdır. Bu zaman sənətkar bədii dilin çox mühüm tərkib hissələri olan bədii ifadə vasitələrindən yerli-yerində yararlanır. Tutaq ki, şair bədii təsvir vasitələrindən biri olan simvoldan istifadə edir. Bu zaman şairin ifadə etdiyi fikir üstüörtülü, pərdəli və yaxud rəmzi şəkildə oxucuya çatdırılır.

Məlumdur ki, bədii əsərdə simvoldan bu və ya başqa surətin xarakterini

açmaq, səciyyəvi cəhətlərini oxcunun nəzərinə çatdırmaq üçün istifadə edilir. Xəlil Rza Ulutürk aşağıdakı iki misrası ilə mənfur ermənilərin və onlara havadarlıq edən rus imperiyasının obrazını simvolik şəkildə ustalıqla yarada bilmişdir:

Cüt qolumu çiynimdəncə vurub saldı qarı düşmən,
Arxasınca qoca gürzə – qızıl xallı Sarı düşmən[1].

Birinci misradakı "qarı düşmən" ifadəsinin simvolik mənası ermənilər, ikinci misrasındakı "qoca gürzə – qızıl xallı sarı düşmən" isə rus imperiyasıdır. Şair bu ifadələr vasitəsilə düşmənlərin zülmkarlığını, qaniçənliyini, vəhşi xarakterini səciyyələndirməyə çalışmışdır.

Ümumiyyətlə, bədii sualla bədii nidanın çulğalaşmış, müştərək missiyanın daşıyıcı komponentləri formasında təqdiminə əksər şairlərimizin əsərlərində təsadüf edilən leksik hadisədir.

Şairin sənətkarlığını yüksəldən ifadə vasitələrindən biri də təkrirdir. Nəsr və dramaturgiya nümunələrində olduğu kimi, nəzm əsərlərində də təkrirlər fikrin daha bariz şəkildə ifadəsinə xidmət göstərir. Poeziyada təkrirlər xüsusi məna kəsb etməklə bərabər, eyni zamanda güclü pafos yaradır. Məmməd Arazın "Vətən desin" şerində aşağıdakı misralara diqqət yetirək:

Bu gün gərək hər anımız Vətən desin!
Təhminimiz, gümanımız Vətən desin!
Qılıncımız, qalxanımız Vətən desin!
Qəlbimizin hər duyğusu, hər vurğusu.
Vətən desin!
Əgər varsa zərrə qədər imanımız
İmanımız Vətən desin![2]

Bu şeirdə "Vətən desin!" ifadəsinin beş dəfə təkrarı ahəngdarlığı, intonasiyanı daha da artıraraq güclü bir təkrir yaratmışdır. Şair təkriri yerli-yerində işlətməklə hər bir vətən övladını düşmənə qarşı mübariz, amansız olmağa və vətəni müdafiə etməyə çağırmışdır.

Qarabağ mövzusunda yazılan əsərlərdə geniş istifadə edilmiş məcaz növlərindən biri də metaforadır. Metafora bir əşya və ya hadisənin digər əşya və ya hadisə üzərinə köçürlməsidir.

Məlumdur ki, sənətkar fikrini qüvvətləndirmək üçün elmi əsərlərdə olduğu kimi, bədii əsərlərdə də sitatlara müraciət edə bilər. "Sitat – hər hansı mətnin bir parçasını eynilə misal gətirmək. Sitatdan nüfuz qazanmış mühüm

---

[1] Ulutürk Xəlil Rza. Qəhrəman Təbrizim. Bakı: Gənclik, 1994, 356 s.
[2] Qurbani Abdulla. Məmməd Araz. Üç gün cəbhə bölgəsində. Bakı: Azərnəşr, 2001, 140 s.

bir fikrə istinad edərək öz fikrinə qüvvət vermək, yaxud öz fikrini dəqiq, aydın bir şəkildə ifadə etmək" (57, 159).

Maraqldır ki, şair ilhamı coşur, çağlayır, kükrəyir, özünə sığmır və bəzən özündən asılı olmayaraq bədii sitata müraciət etməyə ehtiyac duyur. Zəlimxan Yaqubun "Zəlimxan qarğışı" poemasında şairlərimizdən Məhəmməd Füzulinin, Səməd Vurğunun, Məmməd Arazın poetik örnəklərindən bəhrələndiyi məlumdur.

Beləliklə, məcazlar sistemi poetik mətnlərin təsir gücünü, cazibə qüdrətini, sanbalını artırır, gizlin mətləbləri, acı həqiqətləri oxucuya birbaşa deyil, bədii təsvir və ifadə vasitələri ilə, bəzən də sətiraltı mənalarda çatırmaq xüsusiyyətlərinə malikdir.

Elmi işin son fəslinin üçüncü yarımfəsli **"Bədii struktur problemləri"** adlanır.

Ədəbiyyatşünaslıqda bədiilik probleminə müxtəlif mövqedən yanaşılır. Ədəbiyyatda bədii strukturu əsərin məzmun, mündəricəsi formalaşdırır. Burada bədii quruluş mürəkkəb xüsusiyyətlərə malik olur. Belə ki, məzmun və forma anlayışları ədəbiyyatın tərkib hissələri olduğu üçün bu da müəyyən mürəkkəbliklər yaradır.

Bədiilik təkcə formaya, əsərin yüksək poetik mətninə aid bir cəhət deyildir. O, həqiqətin dərin ümumiləşdirilməsi, obrazlı inikası və estetik ifadəsidir. Forma ilə mündəricə vəhdəti özü-özlüyündə bədiilik məsələsini aydınlaşdırmaq üçün kifayət deyil. Bu vəhdətin, eyni zamanda, həyat həqiqətlərinə uyğun olub-olmadığını müəyyənləşdirmək lazımdır. Həqiqətə uyğunluq, realist məzmun sənət üçün birinci dərəcəli əhəmiyyətə malikdir.

Müasir Azərbaycan poeziyasında Qarabağ mövzusu tədqiqat obyekti olduğundan bu sahə üzrə qələmə alınan nəzm əsərlərində istifadə edilən hər üç vəznin (heca vəzni, əruz vəzni, sərbəst vəzn) xüsusiyyətləri elmi işin diqqət mərkəzində saxlanılmışdır.

Vəzn nədir? Bu suala ədəbiyyat tarixçisi Əmin Abid belə cavab verir: "Vəzn dilin məhsuludur, hər ictimai zümrənin öz ilk şeirinə verdiyi ahəng dilinin ümumi ahəngindən ayrılan "ən saz – element"lər (ünsürlər məcmuəsidir). Türklərin şeir musiqisini axtarmaq üçün nə Ərəbistanın qızğın çöllərinə, nə də İranın tozlu ovalarına getmək lazım deyildir; ibtidai sözlərin dilimizə çevrilməsi bunun fəlsəfəsini anlamaq üçün yetişər[1].

Müasir Azərbaycan poeziyasında Qarabağ mövzusunda yazılan poetik örnəklərdə heca vəzninin müxtəlif formalarından istifadə olunmuşdur.

[1] Abid Əmin. Heca vəzninin tarixi // Azərbaycan ədəbiyyatının tarixi poetikası. II cild. Redaktoru: Ş.Alışanlı. Bakı: Elm, 2006, s. 99-112.

Araşdırmalar göstərir ki, bu mövzuda heca vəzninin yeddi hecadan on səkkiz hecalıya qədər şeir nümunələri yaradılmışdır. Ən dar çərçivədə böyük fikirlər ifadə etmək sənətkarın ustalığının, poetik qüdrətinin əlamətidir. Xalq şairi Zəlimxan Yaqubun "Layla, Xocalım layla" şeiri yeddi hecalıdır və o hisslərini, duyğularını oxucuya yüksək səviyyədə çatdıra bilmişdir.

Məlumdur ki, səkkiz hecalı şeirdə bölgü özünü əsasən, 4-4; 5-3; 3-5 şəklində göstərsə də, ən çox 4-4 bölgüsü işlənir. Hüseyn Kürdoğlunun "Vətənsiz olarmı" şeiri səkkiz heca üzərində qurub və 5-3 bölgüsü ilə şəkillənmişdir.

Araşdırma zamanı doqquz və on hecalı şeirlərə demək olar ki, rast gəlmədik.

On bir hecalı şeir Qarabağ mövzusunda yazılmış poetik örnəklərdə geniş yayılmış ölçülərdəndir. Bu ölçüdən istər yaşlı, istərsə də cavan şairlərimiz gen-bol istifadə etmişlər.

Qarabağ mövzusunda yazılmış poetik örnəklərdə on beş hecalı şeirlərin ölçüsü, ahəngi əsasən 8-7 bölgüsünə əsaslanır.

On altılıq heca vəzninin ən oynaq ölçülərindəndir. Müasir dövrdə Qarabağ mövzusunda yazılan poetik nümunələrdə heca vəzninin on altılıq ölçüsündən daha çox istifadə edilmişdir.

On səkkizlik heca vəzninin ən nadir ölçülərindəndir. Bu ölçüdə yazılmış əsərlərin xüsusi sanbalı, siqləti var. Hüseyn Kürdoğlu Qarabağ mövzusunda yazdığı "Millətimizdən" şeirinin son beyti on səkkizlik heca əsasında qurmuşdur.

Müasir poeziyamızda Qarabağ mövzusunda sərbəst formada yazılmış şeirlər də çoxluq təşkil edir. Bu mövzuda Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin, Məmməd Arazın, Nəriman Həsənzadənin və b. sərbəst şeir təsiri bağışlayan və misraları həcm baxımından qeyri-bərabər, lakin poetik baxımdan ahəngdar, ritmli olan və yüksək fikir yükü daşıyan poetik nümunələri çoxdur.

Bədii struktur məsələlərini araşdırarkən şeirin qafiyə quruluşuna toxunmamaq mümkünsüzdür. Çünki şeirdə qafiyə böyük əhəmiyyətə malikdir, ahəngi qüvvətləndirir və onun yadda qalmasını asanlaşdırır. Həmqafiyə olan sözlər daha çox misraların axırında gəldiyi üçün başqa sözlərə nisbətən yüksək intonasiya ilə deyilir. Həmin sözlərdə intonasiyanın yüksəlməsi misranın tamamlanmasını bildirir, eyni zamanda onu əvvəl misra ilə bağlayır və şeirin ümumi ahəngini tənzimləyir.

Milli poeziya üçün lazım olan ilkin şərt milli ruh, lirik «mən»in toxunduğu mövzunu mənən yaşamasıdır. Eyni zamanda şeirə xas əsas əlamətlər – ritm, qafiyə, vəzn sisteminin harmoniyasıdır.

Dissertasiyanın son fəslinin dördüncü yarımfəslində **“Qarabağ mövzulu poeziyada folklor motivləri”** problemi araşdırılmışdır.

Folklor, şifahi xalq ədəbiyyatı hər zaman bədii ədəbiyyatın mənbəyi, qaynağı funksiyasını daşıyıb. Çünki folklor hikmətdir, müdriklikdir. Bu hikmətin, bu müdrikliyin kökləri tarixin dərin qatlarına gedib çıxır. Söz sənətkarı folklora söykənəndə, folklor motivlərindən yerli-yerində düzgün istifadə edəndə yaratdığı əsərlərin qiyməti misilsiz olur. Azərbaycan ədəbiyyatında yazılı söz sənəti ilə şifahi xalq yaradıcılğı qoşa qanad kimi birgə olub. Xalqın müdriklik çeşməsindən su içən, xalqın ruhundan qaynaqlanan, onun folklor motivlərindən istifadə edən yazarlarımız çağdaş poeziyamızın dəyərli nümunələrini yaratmış və yaratmaqdadırlar. Araşdırmalar göstərir ki, xalq ədəbiyyatını, onun folklorunu dərindən mənimsəyən şairlərimiz Qarabağ mövzusunda yazdıqları əsərlərində folklor motivlərinə ciddi münasibət bəsləmiş və mövzunun əhatə dairəsinə uyğun folklor motivləri seçmişlər.

Şifahi xalq ədəbiyyatının lirik növlərindən hesab edilən bayatıların yazılı ədəbiyyatımızdakı nümunələrinə müxtəlif aşıq və el şairlərinin yaradıcılığında rast gəlirdik. Lakin 1990-cı ilin qanlı yanvarından başlayaraq Qarabağ müharibəsinin gətirdiyi vətən, yurd həsrətindən, şəhidlərimizin ağrı-acısından nisgil tapan göynərtili, yaralı bayatılar qüssə, kədər ovqatının daşıyıcısı janrı kimi ədəbiyyatda xüsusi statusa yiyələndi. Bayatılar xalqın istək və arzularını, dərd və kədərini ifadə etmək baxımından digər lirik janrlardan müqayisə olunmaz dərəcədə fərqlənir. Prof.Məhərrəm Qasımlı yazır: “İnsanın dünyaya gəlişindən dünyadan gedişinə qədərki bütün ömür boyunu çevrələyən bayatılar həyatın ayrı-ayrı məqam və mərhələlərinə uyğun duyğu və düşüncələri bənzərsiz bir zəriflik və həzinliklə əks etdirir. Lirik ovqat kövrək duyğulardan tutmuş güclü ümumiləşdirmə və fəlsəfi dərinliyə malik həyati düşüncələri yığcam bir biçim daxilində poetik sərrastlıq və ecazkar harmoniya ilə ifadə edən bu əvəzsiz folklor örnəklərinin bədii-estetik nüfuzetmə qüdrəti şifahi və yazılı ədəbiyyatın hər hansı bir janrından müqayisəolunmaz dərəcədə güclüdür”[1].

1990-cı illərdəki yazılı ədəbiyyatımızda Xəlil Rza Ulutürkün, Hüseyn Kürdoğlunun, Qaçay Köçərlinin, Zəlimxan Yaqubun, Bəhlul Abdullanın və başqa şairlərimizin müəllif bayatılarında şəhidlərimizin ruhuna tükənməz məhəbbət, sevgi, ülviyyət, vətənə, yurd-yuvaya bağlılıq, qürbətə, qəribliyə dözümsüzlük duyğuları əsas yer tutur. Dərdə, möhnətə, əzaba, vətəndə

[1] Qasımlı Məhərrəm. Bayatı // Azərbaycan ədəbiyyatının tarixi poetikası / II kitab.Bakı: Elm, 2006, 288 s.

vətənsizlik, bu ağrılara dözümsüzlük motivi daşıyan müəllif bayatıları dolayısı ilə vətən torpağına sevginin, məhəbbətin, ana yurdun övladlarına bağlılığın ifadəçisidir.

Qarabağ mövzulu şeirlərində Zəlimxan Yaqub da narahat humanist hisslərini, həqiqət axtarışlarını, Qarabağa məhəbbət, şəhidlərin ruhuna ehtiramını və s. kimi hisslərini ustalıqla qələmə almış və onları öz lirikasının başlıca qayəsinə çevirmişdir. Digər sənətkarlarımızdan fərqli olaraq Z.Yaqubun qələmə aldığı müəllif bayatılarında, folklorda olduğu kimi “Əzizim”, “Əzizinəm” başlanğıc formalarını saxlayır. Şair bunları elə ustalıqla yaradır ki, oxucu özünü qədim və zəngin folklor, bayatı mühitinə hiss edir. Maraqlıdır ki, Z.Yaqub bu zaman folklor ənənəsinə həm dil -üslub, poetik ifadə, həm də bədii quruluş baxımından sədaqətli qalır. Oxucu sanki şairin bayatıları ilə el, xalq bayatıları arasında zərrəcə fərq hiss etmir.

Xəlil Rza Ulutürkün Qarabağ mövzusunda, o cümlədən şəhid oğlu Təbriz Xəlilbəyli haqqında yazdığı bayatıları da güclü bədii-emosional təsir imkanına malik olub, poetik mükəmməlliyinə görə folklor örnəkləri ilə yaxından səsləşir.

Müasir Azərbaycan poeziyasında Qarabağ mövzusunda yazılan poetik örnəklərdə təcnislərə də təsadüf edirik. Məlumdur ki, təcnis klassik aşıq poeziyasına məxsus janrdır. H.Kürdoğlunun Qarabağ mövzusunda yazdığı təcnislər diqqəti orijinal ifadə tərzi, poetik cazibədarlığı ilə fərqlənir.

Gəraylı janrına daha çox aşıq üslubuna yaxın olan şairlərimiz müraciət edirlər. Çünki gəraylı aşıq yaradıcılığında ən populyar, ahəngdar və tez əzbərlənən şeir şəkillərindəndir**.** Bunun səbəbi isə misralarda hecaların sayının nisbətən azlığı – 8 hecadan ibarət olmasıdır. Ona görə də gəraylı şeir şəklinə tez-tez müraciət edilir.

Müasir Azərbaycan poeziyasında qoşma janrında yaranan poetik örnəklərə də tez-tez təsadüf edirik.

Müasir Qarabağ mövzusunda yazılan şeir nümunələrində təcəssüm tapan Dədə Qorqud, Koroğlu, Qaçaq Nəbi kimi müdriklik, igidlik, cəsurluq nümunələri oxuculara mübarizlik, qəhrəmanlıq ruhu aşılayır. Təsadüfi deyildir ki, Qarabağ müharibəsinin şiddətləndiyi illərdə düşmənə qarşı mətanətlə mübarizə aparan könüllü döyüşçülərimizdən bəziləri özlərini Koroğlu adlandırır, bu təxəllüs ilə qəhrəmanlıq nümayiş etdirirdilər. Bədii ədəbiyyat, milli şeirimiz müasir gəncliyə folklor qəhrəmanlarını sevdirməklə, qəhrəmanlara məxsus mənəvi keyfiyyətləri aşılamaqla bədii həqiqəti həyatın gerçəkliyinə çevirə bilibsə, deməli çağdaş poeziyamız öz üzərinə düşən vətənpərvərlik missiyasını ləyaqətlə yerinə yetirmişdir.

Dissertasiya işinin **“Nəticə”** hissəsində elmi tədqiqata yekun vurulur,

mövzu ilə bağlı araşdırmalar ümumiləşdirilir, əsas elmi-nəzəri qənaətlər sistemləşdirilərək obyektiv dəyərləndirilir. Araşdırmanın yekununda mövzu ilə bağlı problemlər, elmi yeniliklər göstərilir, işin əhəmiyyəti və praktiki tövsiyələr öz əksini tapır.

**Dissertasiyanın əsas məzmunu iddiaçının nəşr edilmiş aşağıdakı işlərində öz əksini tapmışdır:**

**Kitablar:**


1. Müasir Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu. (Məqalələr toplusu) Bakı: Nafta-Press, 2005, 112 s.
2. Qarabağ mövzusunun poeziyada işlənmə istiqamətləri. Monoqrafiya. Bakı: MBM, 2009, 144 s.
3. Poeziya və Qarabağ problemləri. Monoqrafiya. Bakı: MBM, 2009, 272 s.
4. 90-cı illər Azərbaycan ədəbiyyatında vətənpərvərlik motivləri. Monoqrafiya. Bakı: MBM, 2012, 112 s.
5. Müstəqillik dövrü Azərbaycan Ədəbiyyatı. (Məqalələr toplusu) Bakı: Ekoprint, 2017, 152 s.

**Məqalələr:**

6. Müasir poeziyamızda Qarabağ mövzusu / "Qarabağ dünən,bu gün və sabah" 3-cü Ümumrespublika elmi-əməli konfrans materialları. Bakı, 2003, s.145-147.
7. Müasir Azərbaycan poeziyasında Qarabağ mövzusu (Ələmdar Quluzadənin yaradıcılığı əsasında) // Elmi Araşdırmalar (elmi nəzəri məqalə toplusu) 2004, IV, s. 82-86.
8. Vətən ruhuna hakim kəsilən şeirlər / "Qarabağ dünən,bu gün və sabah" 5-ci Ümumrespublika elmi-əməli konfrans materialları. Bakı, 2006, s.144-148.
9. Şəhidlik mövzusunun bədii tədqiqi. Filologiya məsələləri, Bakı, 2008 №4, s.344-349.
10. N.Həsənzadənin "Qarabağdan gələn var poemasında sosial ziddiyətlərin əksi". Filologiya məsələləri, 2008, №8, s.300-309.
11. Vətən yaraları, şair harayı. Dil və Ədəbiyyat, 2008, №2 (62) s.154-156
12. 90-cı illər poeziyasında folklor motivlərindən istifadə. Dil və Ədəbiyyat. Elmi mənəvi jurnal, 2009, №5 s. 187-189.
13. Müasir Azərbaycan poeziyasında qəhrəman döyüşçü obrazı // The Korean journal of Central Asian Coucasion Studies Koreya, 2009, s.113-122
14. Əli Mahmudun "Dərdimin şəriki" poeması haqqında // Filologiya məsələləri, 2009, №2, s.243-251.

15. Müasir Azərbaycan poeziyasında düşmən tipi. Ege Universiteti // “Türk bilim” dergisi. İzmir-2009,1- ci sayı, s.53-59.
16. Müasir Azərbaycan poeziyasında Qarabağ mövzusu və humanizm // “Qarapapaqlar” jurnalı. Tiflis-2009, №2, s.14-17.
17. 1990-cı yıllar Azerbaycan şiirinde insancılık // Yom-Türk Dünyası Kültür Dergisi Cüz. 2010,17-ci sayı, s. 55-61.
18. Famil Mehdi yaradıcılığında Qarabağ mövzusu “Dilən, professor, utanma dilən” kitabı haqqında). // Pedaqoji Universitet xəbərləri. Bakı, 2010, №5, s.191-197.
19. H.Kürdoğlu yaradıcılığında milli “mən” yaddaşı // Dil və Ədəbiyyat. Bakı-2010,№3 (74), s.197-200.
20. Müasir poeziyada milli azadlıq ideyaları // Dil və Ədəbiyyat. Bakı-2010, №5 (76), s.158-160.
21. Əflatun Saraclı poeziyasında vətən mövzusu // Filologiya məsələləri, Bakı-2010 , №5. s.184-190.
22. 90-cı illər poeziyasında müharibə və ağrı mövzusu // Filologiya məsələləri, Bakı-2010, №11. s.496-502.
23. Poemalarda Qarabağ problemi. Dil və Ədəbiyyat. Bakı-2010, №4 (75) s.183-186.
24. Çağdaş Azerbaycan şiirinde düşman tiplemesi // Motif Akademi Hakbilimi dergisi. İstanbul, 2011, №1 s.74-81.
25. Qarabağ mövzusu lirikada. Filologiya məsələləri, Bakı-2011, №1. s.408-416.
26. Qadın şairələrin yaradıcılığında Qarabağ mövzusu. Filologiya məsələləri, Bakı-2011,№2. s.457-462.
27. Müasir poeziyada şəhidlərin qəhrəmanlıq səviyyəsində təqdimi // Azərbaycan Dillər Universitetinin Emi xəbərləri. 2011, №1. s.227-232.
28. Poeziya və zaman // Filologiya məsələləri, Bakı-2012, №5, s.390-396.
29. Тенденции разработки темы родины в литературоведении // Журнал “Актуалные вопросы”, спецвыпуск. Москва, 2012, №10 (64) s.54-64.
30. Современная Азербайджанская, литература, написанная на тему Карабаха в настоящее время // Этносоциум и межнациональная культура. Москва 2012, №7 (49). s.145-150.
31. Müasir poeziyada bədii quruluş məsələləri / Tətbiqi dilçiliyin müasir problemləri. Beynəlxalq elmi konfrans. Bakı : Mütərcim , 2013, s.205-207.
32. Poeziyada gəncliyin vətən müdafiəsinə çağırışı / Xarici dillərin tədrisinin aktual problemləri. V Respublika elmi-praktik konfransın materialları. Bakı : Mütərcim , 2013, s.357-360.

33. Zəlimxan Yaqub poeziyasında dil məsələləri / Azərbaycanşünaslığın aktual problemləri. V Beynəlxalq elmi konfransın materialları 05-07 may 2014, Bakı: 2014, s.538-541.
34. Azərbaycanlıların soyqırım faciəsi Zəlimxan Yaqub yaradıcılığında // AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Ədəbiyyat məcmuəsi, 2015, XXVI cild, s. 222-228
35. Çağdaş Azerbaycan şiirinde Hocalı Soykırımı / "Kadim Dostluğun yüz yıllık açmazında Türk erməni ilişkiləri". Uluslararası Sempozyum, 8-11 aprel, 2015. s. 127.
36. Xəlil Rza lirikasında azadlıq ideyaları / "Azərbaycanşünaslığın aktual problemləri". VI Beynəlxalq elmi konfransın materialları, II hissə. Bakı-5-7 may, 2015,Bakı. s. 334-337.
37. Savaşlarda meneviyat ünsürü olaraq şiir / "birinci Dünya Savaşında mevlevi olayı və gönüllü toplulukları". Ululslararası Sempozyumu. Kırıkkale-Ankara, 22-24 oktyabr, 2015, s. 307-312.
38. Modern Azerbaycan şiirinde vatanseverlik / VII Uluslararası Balkanlarda Sosial Bilimler kongresi.. 25-30 avqust, Macarıstan-Kaposvor, 2015, s. 142-152.
39. Qarabağ mövzusu Türk dünyası şairlərinin yaradıcılığında / AMEA Nizami adına Ədəbiyyat İnstitutu. "Türk xalqları ədəbiyyatı: mənşəyi, inkişafı, mərhələləri və problemləri" mövzusunda Beynəlxalq elmi konfrans. Bakı, 1-2 dekabr Bakı 2015-ci il. Bakı 2015, s.477-481.
40. Bəxtiyar Vahabzadə yaradıcılığında vətəbpərvərlik motivləri / AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi, "Ricalə" araşdırmalar toplusu, Bakı : 2015,s.155-156.
41. Müasir Azərbaycan poeziyasında Xocalı faciəsinin əksi / "Azərbaycan və Şərqi Anadoluda Türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər), III Beynəlxalq elmi konfransın materialları, Azərbaycan Respublikası Şamaxı şəhəri 07-10 aprel, 2016, s. 493-499.
42. Sabir Rüstəmxanlı poeziyası müstəqillik illərində / Ulu öndər Heydər Əliyev irsində multicultural və tolerant dəyərlər. Beynəlxalq Elmi konfransın materialları, 3-5may, 2016, II hissə, s. 269-272.
43. Ailede evlatların vatansever ruhuyla yetişdirilmesi / Halk Kültüründe Aile Uluslararası sempozyumu. Ederne, 25-27 mart , 2016, Edirne: s. 93
44. Çağdaş Türk şiirinde Karabağ sorunu / Uluslararası türk Dünyası Eğitim Bilimleri ve Sosial Bilimler Konqresi Bildirileri, Ankara, 2016, s. 467-497.

45. Azerbaycan çoçuk ve Genclik Edebiyyatında Karabağ savaşı, hocalı soykırımı ve göç / 3. Uluslararası Cocuk ve Genclik Edebiyyatı simpozyumu Bildirileri, 2016, s.13-18.
46. Zəlimxan Yaqubun İstiqlal poeziyası // Müstəqillik dövrü Azərbaycan Ədəbiyyatı. Bakı: Elm və Təhsil, 2016, s. 100-126.
47. Nurəngiz Günün Xocalı Simfoniyası poeması //AMEA-nın Xəbərləri / Humanitar elmər seryası, 2017, №1, s. 66-69.
48. Qarabağ mövzusu poeziyada dil və üslub məsələləri // Ağamusa Axundov və Azərbaycan filologiyası. Bakı – Elm, 2017, s. 231-233.
49. Azərbaycan poeziyasında yurd itkisi mövzusu / XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımlar mövzusuna həsr olunmuş IV beynəlxalq konfransın materialları, Lənkəran, 2017, s.259-263.
51. Türkiyə və Azərbaycan şairlərinin yaradıcılığında şehitlik konusu / Uluslararası 15 Temmuz Darbe Girişimi ve Türkiye Sempozyumu. 24-26 may, Muş, 2017, s. 100.
52 Çağdaş Azerbaycan şiirinde Hocalı Soykırımı / 25. Yılında Hocalı Soykırımı Uluslararası Sempozyumu. Giresun Universitesi, İktisadi ve İdari Bilimler Fakültesi. 26-27 şubat, 2017, s. 163-170
53. "The topik of Karabakh" İn the Azerbaijanı poetrü BVY // "Konfrontation, issue number 2017, 121, s. 86-101.
54. Türkiye Edebiyyatında 15 Temmuz hadiselerinin tesviri / Darbe Sempozyumu. Adnan Menderese Universitesi. 26-28 mays, 2017, s. 875-884.
55. Tema della "Karabakh" nel Azeropoesıa // Cadmo, franko Angeli. XXV (2), 2017, s. 239-253.

**Marziyya Allahiar gizi Najafova**

## Garabagh theme in modern Azerbaijan poetry

### SUMMARY

Research work named “Karabakh in modern Azerbaijan poetry” by Marziyya Najafova has been devoted to the actual subject. The main purpose of the work is the study of the poetry of the 1990s, as a field of literature that seeks to express itself in a new quality and status, and shows at what level the transformation of the Karabakh issue into a subject of artistic expression occurs.

The research work is consists of introduction, 4 chapters, conclusion and used literature list.

In the introduction substantiates the statement and urgency of the problem, indicates the degree of its development in historical and literary-theoretical thought, and clarifies its purpose and objectives and have been noted the impact of the Karabakh war on the topic, idea and social content of our poetry.

First chapter of the dissertation work is called “Karabakh subject’s reflection in poetry and its used direction in history of literature”. This chapter consists of two half-chapters: “The directions of research of the thematic palette of poetry of the 90s” and “Poetic comprehension of the patriotism of poetry of the 90s”. In this chapter the subject is researched in historical aspect according to the historical sources. It provides a detailed explanation of the socio-political events taking place in our country in the late 80s, provoked by tragic realities, which were the main reasons for the appearance of patriotic themes in the poetry of the 90s.

The second chapter explores the reflection of the Karabakh theme in poetry in the context of lyrical works. This chapter which is called “The Karabakh theme in the lyrics” is divided into two half-chapters: “Formation of the "Shahidism"(martyrdom) theme” and “Humanistic themes in lyrics”. In this section the formation of such themes in poetry as martyrdom, refugee, loss of hearths, graves is highlighted. Based on the separate poems of different poets, these topics are commented on in detail, as well as the problem of posing questions of humanism in the lyrics.

The third chapter, entitled "The Karabakh theme in the epic poem" aims is to reflect the historical events in the epic genre, posing problems reflection social contradictions in the epic poem, by animating images of

heroes, soldiers, enemies in the epic poems of such poets as Z. Yakub, N. Khazri, A. Kulizade, N, Hasanzade, G. Mehti, and others.

Finally, in the 4 chapter focuses on the features of the works written in the Karabakh theme, in a broad aspect, commented on the style of language, art production, as well as the skillful use of motifs in these works.

The conclusion summarizes the main results of the study, at the same time it is noted that, despite the fact that the poetry of the 90s was not able to provide a deep understanding of current events, the masters of the artistic word, who are remaining in the "debt" before time, will necessarily return to these years, confidently reviving the artistic power of the poetic word of existing events.

**Марзия Аллахяр кызы Наджафова**

# КАРАБАХ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ

## РЕЗЮМЕ

Исследовательская работа «Карабах в современной Азербайджанской поэзии» Марзии Наджафовой посвящена актуальной теме. Основная цель работы – это изучение поэзии 90-х годов, как области литературы, стремящейся к самовыражению в новом качестве и статусе, и показывающей на каком уровне в ней происходит превращение Карабахского вопроса в предмет художественного слова.

Исследовательская работа состоит из вступления, 4 разделов, заключения и списка использованной литературы.

Во вступлении обосновывается постановка и актуальность проблемы, указывается степень ее разработки в исторической и литературно-теоритической мысли, уточняются ее цель и задачи. Отмечается влияние Карабахской войны на тему, идею и художественно-общественное содержание нашей поэзии.

Первый раздел диссертации называется «Обоснование Карабахской темы в поэзии и направления ее разработки в литературоведении». Этот раздел состоит из двух подразделов: «Направления исследования тематической палитры поэзии 90-х годов» и «Поэтическое осмысление патриотизма поэзии 90-х годов».

В этом разделе тема раскрывается в основном в историческом аспекте, ссылаясь на исторические источники. Здесь обращаются к Карабахнамелер, к тезкирелер, отражающим Карабахскую тему, затем к военной литературе 1941-1945гг., а также к литературе 60-х годов как к основе литературного влияния, играющего важную роль в формировании свободолюбивых идей. В этом разделе дается подробное объяснение общественно-политическим событиям, происходящим в нашей стране в конце 80-х годов, спровоцированными трагическим реальностям, которые явились основными причинами появления патриотических тем в поэзии 90-х годов.

Во втором разделе исследуется отражение Карабахской темы в поэзии в контексте лирических произведений. Раздел называется «Карабахская тема в лирике». Он состоит из двух подразделов:

«Формирование темы «Шехидства»» и «Гуманистические вопросы в лирике». В этом разделе особо выделено формирование таких тем в поэзии как шехидство, беженство, потеря очага, могилы. На основании отдельных стихотворений разных поэтов подробно комментируются эти темы, а также проблема постановки вопросов гуманизма в лирике.

В третьем разделе под названием «Карабахский вопрос в эпических поэмах» преследуется цель отражения исторических событий в эпическом жанре, постановка проблемы отражения социальных противоречий в эпических поэмах, оживляя образы героев, воинов, врагов в эпических поэмах таких поэтов как З.Якуб, Н.Хазри, А.Кулизаде, Н,Гасанзаде, Г.Мехти и др.

Наконец в 4 разделе внимание акцентируется на особенностях произведений, написанных на Карабахскую тему, в широком аспекте комментируется стилистика языка, художественная постановка, а также искусное использование мотивов в этих произведениях.

В заключении обобщаются основные результаты исследования, в то же время отмечается, что, несмотря на то, что поэзия 90-х годов не смогла дать глубокое осмысление происходящим событиям, оставшиеся в «долгу» перед временем мастера художественного слова, обязательно вернутся к этим годам, с уверенностью оживив художественную силу поэтического слова имеющихся событий.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ ГЯНДЖАВИ

*На правах рукописи*

**МАРЗИЯ АЛЛАХЯР кызы НАДЖАФОВА**

# КАРАБАХ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ

**5716.01 – Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора наук по филологии**

**БАКУ–2018**